RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 253 (8569) CÜMƏ AXŞAMI, 3 dekabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

XX əsrin 80-ci illərinin sonları - 90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20 %-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir.

2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, mülki şəxslərdən ibarət "könüllü dəstələri" yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh və təhlükəsizlik üçün əsas təhdiddir və hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər.

Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Hər il noyabrın 10-u Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 dekabr 2020-ci il*

## Etirazlar Ermənistanı daha dərin xaosa aparır

Yerevanda üç həftədir fasiləsiz etiraz mitinqləri keçirilir. Aksiyalar istər iştirakçıların sayı, istərsə də miqyası baxımından genişlənməkdədir.

Son məlumata görə, mitinq iştirakçılarının gündəlik sayı 7 min nəfəri ötüb. Paytaxtla yanaşı, Gümrü və daha bir neçə şəhərdə insanlar küçələrə çıxmağa başlayıblar.

Baş nazir Nikol Paşinyana qarşı təşkil edilən etiraz aksiyalarına polisin müdaxiləsi nəticəsində indiyə kimi 100 nəfərədək insan yaralanıb. Onlardan bəzilərinin vəziyyəti ağırdır. Hazırda baş verənlərdən belə məlum olur ki, yaxın tezlikdə Ermənistanda vəziyyət daha acınacaqlı xarakter alacaq. Çünki hər ötən gün Paşinyanın ölkəyə rəhbərliyini istəməyənlərin sayı sürətlə artır.

***Ardı 4-cü səh.***





# İLHAM ƏLİYEV dərsləri

*Birinci Qarabağ müharibəsi qurtarandan 27 il sonra - 27 sentyabr 2020-ci ildən başlayan İkinci Qarabağ müharibəsi ilə Ali Baş Komandan İlham Əliyev Ermənistana və onun havadarlarına mükəmməl bir dərs də verdi:*

- Yeni nümunədə yeni tipli müharibə dərsi!
- Düşməni işğal etdiyi ərazilərdən sürətlə qovmaq dərsi!
- Ali diplomatiya dərsi!
- Dünya KİV-ində düşməni ifşa dərsi!
- Dost qazanmaq, dostluq etmək və dost köməyindən istifadə dərsi!
- Ədalət uğrunda vuruşarkən ədalətsiz tərəfə kömək göstərənlərə ədalət dərsi!
- Vətəni əməldə sevmək dərsi!
- Xalqın məhəbbət və dəstəyini qazanmaq dərsi!
- Ordunu sevmək, idarə etmək, şəxsi heyətdə böyük ruh yüksəkliyi yaratmaq dərsi!
- Şəhidlərə hörmət və ehtiram göstərmək, xatirələrini əziz tutmaq dərsi!
- İqtidarla xalqın yumruq kimi birliyini necə yaratmaq dərsi!

**Bütün dünya böyük auditoriya qarşısında və aşkarlıq şəraitində verilən bu dərsləri gördü və ağlı olanlar özləri üçün müəyyən nəticələr də çıxardı.**

❖ ❖ ❖

Hərbi əməliyyatlar davam edən dövrdə İlham Əliyevin etdiklərindən və dediklərindən Azərbaycan vətəndaşları da çox mətləbləri anladılar və mənimsədilər.

**Prezidentimizin dərsləri bizə nələr öyrətdi?**

**İlham Əliyev ən əvvəl vətəni necə sevməyin nümunəsini ortaya qoydu!**

Bəli, Vətəni hamı sevir!

Amma bu sevgi təkcə sözlə bitməməlidir!

*Vətəni səmimi məhəbbətlə sevmək, lazımi məqamda onun yolunda fədakarlıq göstərməyi bacarmaq da vacibdir!*

**Əslində İlham Əliyev vətən sevgisini bizə öz nümunəsi ilə öyrətdi!**

❖ ❖ ❖

*Üçrəngli bayrağımız bizim üçün qürur mənbəyidir.*

*Bu bayraq həm də müstəqilliyimizin rəmzidir.*

Hər bir dövlət, hər bir vətəndaş öz bayrağı ilə qürur duyur!

O cümlədən biz azərbaycanlılar!

**Ali Baş Komandanımız İlham Əliyev işğaldan azad etdiyi yaşayış məntəqələrində üçrəngli bayrağımızı yüksəltməklə onu bizə daha da çox sevdirdi!**

**Bayrağımızı qalib xalqın bayrağına çevirdi!**

❖ ❖ ❖

Azərbaycanın haqq mübarizəsində, doğma torpaqlarını işğaldan azad etmək uğrunda müharibədə türk qardaşlarımız daim bizim yanımızdadırlar, lazımi dəstək verirlər.

**Bu gün Azərbaycan bayrağı ilə Türkiyə bayrağı şəhər və kəndlərimizdə, yaşayış məntəqələrində, yürüşə çıxan vətən övladlarının əllərində qoşa tutulur, paytaxtdakı binaların üzərində, balkonlarda qoşa dalğalanır.**

Türkiyə Cümhuriyyətində də eyni vəziyyətin şahidiyik!

*Dünyanın müxtəlif ölkələrində erməni vandalizminə və terroruna qarşı keçirilən etiraz aksiyalarında da qardaşlarımız və bayraqlarımızla daim yanaşıyıq.*

**Bu qardaşlığın, bu sevginin, bayraqlarımızın qoşa dalğalanmasının yaradıcısı da İlham Əliyevdir!**

❖ ❖ ❖

Vətən müharibəsinin gedişində Prezidentimizdə bir sıra yeni keyfiyyətlər də kəşf etdik!

Rəhbərə məxsus bir çox mənəvi dəyərlərin dərinliyinin və zənginliyinin şahidinə çevrildik.

*İlham Əliyev, habelə Birinci vitse-prezident Mehriban xanım Əliyeva heç zaman dara düşmüş insanları - istər təbii fəlakət nəticəsində, istər xain düşmənin terror əməlləri nəticəsində - ev-eşiklərini itirənləri, yaralananları, şəhid ailələrini köməksiz qoymurlar.*

Müharibə əlilləri də daim diqqət mərkəzindədir, onlara minik avtomobilləri, dövlət hesabına tikilib təmir olunan mənzillər verilir.

Şəhidlərin dəfni xüsusi hörmət və ehtiramla keçirilir, şəhid ailələri daim qayğı əhatəsində saxlanılır.

Hər bir müharibə yeni şəhid və qazi deməkdir!

*Qədirbilən xalqımız torpaqların azadlığı uğrunda vuruşanları, şəhidləri və qaziləri heç zaman unutmur, şəhidlərin xatirəsinə, müharibə qazilərinə ehtiramla yanaşır.*

**İlham Əliyev həm də bu nümunəvi münasibəti ehtiramla davam etdirəndir.**

❖ ❖ ❖

Bəşəriyyət yarandığı gündən haqq və ədalət uğrunda mübarizə aparır!

Amma heç də həmişə ədalətə nail olmaq, haqqa sahib çıxmaq mümkün olmur!

Bunun üçün təkcə ağıllı yox, həm də güclü olmaq gərəkdir!

**İlham Əliyev ədalətsiz dünyada ədalətə nail olmağın yolunu göstərdi!**

**Həm də əyani şəkildə!**

**Xalqla iqtidarın birliyi formasında!**

*Dünyanın təsir və təzyiq cəhdlərinə sinə gərməyin mümkünlüyünü meydana qoydu!*

*Təkcə döyüş meydanında yox, informasiya cəbhəsində də yorulmadan çarpışdı, Azərbaycana qarşı illər boyu davam edən ədalətsizliyin mahiyyətini açaraq, kökünü, səbəblərini ifşa etdi!*

**Bu sahədə də düşməni məğlubiyyətə uğratdı!**

❖ ❖ ❖

Artıq dünya erməniliyi dünyanın bəlasına çevrilib!

Maliyyələri, mütəşəkkillikləri ilə yaşadıqları ölkələrin siyasətinə, hətta prezidentlərinin mövqeyinə belə təsir göstərirlər!

BMT-nin daimi üzvləri olan Minsk qrupunun həmsədr dövlətlərinin başçıları belə seçkilər dövründə erməni diasporu ilə hesablaşmağa, onların istəklərinə əməl etməyə çalışırlar.

**İlham Əliyev dünya erməniliyinə necə qalib gəlməyin yollarını göstərdi:**

- Həm torpaq uğrunda sonadək döyüşməklə;
- Həm diplomatik cəbhədə çarpışmaqla;
- Həm düşmənin alçaq xislətini, terrorçu mahiyyətini - dinc əhalini, qadın və uşaqları Gəncədə, Bərdədə, Tərtərdə hədəfə çevirərək qadağan olunmuş silah-sursatla qətlə yetirməsini ifşa etməklə;

**İlham Əliyev dünyanın hesablaşdığı ermənilərə elə bir dərs verdi ki, onlar Ali Baş Komandanımızla hesablaşmağa məcbur oldular!**

❖ ❖ ❖

Müharibənin davam etdiyi dövrdə İlham Əliyev dəfələrlə xalqa müraciət etdi, hadisələr barədə doğru, düzgün və ətraflı məlumat verdi.

*Həmişə düz danışdı, olanı söylədi!*

*Açıq danışdı, öz xalqından heç nəyi gizlətmədi!*

*Səmimi danışdı: uğuru da, çətinlikləri də ölkə vətəndaşları ilə açıq şəkildə bölüşdü.*

Bəzən hisslərini gizlətmədi, emosiyalara yol verdi - lazımi ölçü-biçidə!

**Xalq daim qələbə xəbərini Ali Baş Komandanının özündən eşitdi!**

*Ölkə vətəndaşları bu açıq, təmiz müraciətlərinə, parlaq və emosiyalı çıxışlarına görə rəhbərini bir daha qəlbən sevdi, səmimiyyətinə heyran oldu!*

**Bu da bir dərsdir!**

**Xalqa hər şeyi olduğu kimi çatdırmaq, uğur və qələbələrlə bərabər, mövcud olanları da birgə müzakirə edib, bölüşə bilmək dərsi!**

❖ ❖ ❖

İkinci Qarabağ müharibəsini zəfərlə başa çatdıran İlham Əliyev xalqı müqəddəs arzu və istəyinə necə qovuşdurmağın nümunəsini də göstərdi!

Arxalı düşmənlə cəngə başlayarkən xalqı möhkəm birliyə, qüvvələri səfərbərliyə almağa səslədi!

Bu çağırış dərhal böyük əks-səda doğurdu.

Ölkədə fəaliyyət göstərən bütün müxalif partiyalar Ali Baş Komandanı dəstəklədiklərini rəsmən bəyan etdilər!

*Xalq rəhbər ətrafında yumruq kimi birləşdi!*

*Ölkə bir nəbzlə döyünməyə başladı!*

**İlham Əliyev milli birliyə nail olmağın ən gözəl yolunu da göstərdi!**

*Şübhə yoxdur ki, bu birlik bundan sonra heç zaman pozulmayacaq, işğaldan azad olunmuş ərazilərin bərpa edilməsində, insanların doğma yurd-yuvalarına tezliklə qayıdaraq rahat yaşamalarında, viran qoyulmuş torpaqların laləzara çevrilməsində, müstəqil Azərbaycanın daha da qüdrətlənməsində başlıca stimullardan biri olacaqdır!*

❖ ❖ ❖

**İlham Əliyev ağlayan Azərbaycanı güldürdü!**

**İlham Əliyev gülən Ermənistanı ağlatdı!**

**İlham Əliyev Dövlət bayrağımızı qalib xalqın bayrağına çevirdi!**

**İlham Əliyev məğlub Azərbaycan Ordusunu qalib orduya, dünyada yeni müharibə nümunəsini yaradan orduya çevirdi!**

**İlham Əliyev Azərbaycanı qalib dövlətə, Cənubi Qafqazda söz sahibinə, dünyada yüksək nüfuzu və müsbət imici olan dövlətə çevirdi!**

**Bəxtiyar SADIQOV**

## Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başlamışdır.

Haqq və Şərəf işimiz olan, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmişdir.

Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətmişdir.

Həmvətənlərimizin bir çoxu şəhid olmuş, itkin düşmüş, yaralanaraq sağlamlığını itirmişdir. Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilmişdir. Müzəffər Ordumuzun bu gün yazdığı tarix sabah daha da güclü inkişaf edəcək, çiçəklənəcək Azərbaycan üçün möhkəm bünövrədir. Bu, eyni zamanda, regionda dayanıqlı və uzunmüddətli sülhü, əmin-amanlığı və təhlükəsizliyi təmin edən mühüm amildir.

Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, **qərara alıram:**

1. Hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 dekabr 2020-ci il*

## O gün gəldi

### İkiəsrlik məşəqqətin qisası

Elə anlar var ki, yalnız onları yaşayanda həmin anlara nə qədər dərin, böyük bir ehtiyac duyduğunu hiss edirsən. Uzun illər ərzində məhz həmin anları həsrətlə, iztirabla gözlədiyinin fərqində olursan.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyəti, uzaqgörən siyasəti, ağlı, zəkası, cəsarəti sayəsində rəşadətli ordumuzun qazandığı şanlı Qələbə bizi nəhayət ki, 30 ilədək intizarını çəkdiyimiz, ürəyimizin başında qanı kəsilməyən yaraya çevrilmiş o əfsanəvi anlara qovuşdurdu.

Tarixi reallıqlar cənab Prezidentimiz İlham Əliyevin zəmanəsinin parlaq milli liderlərindən və qeyri-adi qüdrətli sərkərdələrindən biri olduğunu isbat etdi. Ali Baş Komandanın qətiyyətli siyasəti və ordumuzun gücü ilə Vətən müharibəsi zəfərlə başa çatdı. Tarixin heç bir dönəmində, dünyanın heç bir ölkəsində görünməyən nadir bir hadisə, - işğal edilmiş torpaqların yenidən hərb yolu ilə geri qaytarılması dünyada misli-bərabəri olmayan bir hadisədir. Azərbaycanın son bir neçə əsrdəki tarixi nailiyyətlərinin zirvəsində hər zaman iftixar, qürur rəmzinə çevriləcək bu şərəfli qələbə heç zaman unudulmayacaq.

***Ardı 5-ci səh.***

## Düşmənin başını əzən dəmir yumruq

### İlham Əliyevin yenilməz qətiyyəti, Ordumuzun gücü və xalqımızın öz rəhbəri ətrafında səfərbərliyi Vətən müharibəsində Azərbaycanın Qələbəsini təmin etdi

İkinci Qarabağ müharibəsində Ermənistanın imzalamağa məcbur edildiyi kapitulyasiya aktının daha bir bəndi icra olundu: Azərbaycan Ordusunun 44 günlük müharibədəki şanlı qələbəsinin yekunu olaraq Ağdam və Kəlbəcərdən sonra Laçın rayonu da işğaldan azad edildi. 1992-ci ildə Azərbaycandakı daxili siyasi çəkişmələr nəticəsində işğal olunmuş Laçında artıq üçrəngli bayrağımız dalğalanır.

### Ermənistan rəzil vəziyyətə salındı

Dünən xalqa müraciət edən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Laçın rayonunun işğaldan azad olunmasını tarixi hadisə adlandıraraq bildirib: *"Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".*

Laçının azad olunması ilə Azərbaycanın ərazi bütövlüyü təmin edildi. Bununla həm də danışıqlar prosesinin ilk prinsipi olan mərhələlərlə 7 rayonun respublikamıza qaytarılması məsələsi öz tarixi həllini tapdı. Lakin məsələ ondadır ki, bu rayonlar danışıqlar prosesi yolu ilə azad olunmadı.

***Ardı 5-ci səh.***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Azərbaycan və Ermənistan arasında ölkənizin Dağlıq Qarabağ bölgəsi uğrunda müharibəyə son qoyan atəşkəs razılaşmasının imzalanması ilə bağlı xəbərləri böyük məmnuniyyətlə qarşıladıq.

Biz Deputatlar Palatası və Federal Senatdakı Braziliya-Azərbaycan Parlamentlərarası dostluq qruplarının sədrləri olaraq Sizin ölkənizlə yaxından maraqlanırıq və Azərbaycanla bağlı bütün prosesləri xüsusilə indiki dövrdə diqqətlə izləyirik. Biz qarşılıqlı əməkdaşlıq və təcrübə mübadiləsi vasitəsilə hər iki ölkənin əhalisinin daha yaxşı həyat şəraitinə nail olması istiqamətində səylərimizi davam etdiririk.

Parlamentarilər olaraq biz sülhü dəstəkləyir, ərazi münaqişələrinin və ya hər hansı digər fikir ayrılıqlarının diplomatik yolla həllinin tərəfdarıyıq.

Cənab Prezident, biz Sizi qazandığınız müvəffəqiyyəti, həmçinin bölgənizdə hərbi əməliyyatların sona çatması və arzuedilən sülhün bərqərar olması istiqamətində danışıqlardakı uğurlarınızı yüksək qiymətləndirir, ölkənizə davamlı əmin-amanlıq, eləcə də sosial və iqtisadi inkişaf arzu edirik.

*Hörmətlə,*

***Antonio ANASTASİA,***
***Braziliya Federal Senatının birinci vitse-prezidenti***

***Klaudio Kajado,***
***Braziliyanın federal konqresmeni***

❖❖❖

Möhtərəm İlham Heydər oğlu!

Vətən müharibəsində böyük Qələbəmiz münasibətilə Sizi və bütün Azərbaycan xalqını Rusiyanın Azərbaycan diasporu adından və şəxsən öz adımdan təbrik edirəm.

Bu Qələbə Sizin gərgin əməyinizin, müdrik daxili və xarici siyasətinizin, Azərbaycan xalqının sarsılmaz mənəvi gücünün, sıx birliyinin və ədalətin təntənəsinə inamının nəticəsidir. Sizin dahi atanızın - Ümummilli Lider Heydər Əliyevin vəsiyyəti həyata keçdi.

Sizin Ali Baş Komandan kimi yorulmaz fəaliyyətiniz və qətiyyətiniz sayəsində rəşadətli Ordumuz Azərbaycanın əzəli torpaqlarını çoxillik erməni işğalından azad etməyə nail oldu.

Siz Azərbaycan tarixinə xilaskar Prezident, azərbaycanlılar isə məğrur, igid, öz şərəf və ləyaqətini qoruyub saxlamış xalq kimi daxil oldular.

Bu gün Azərbaycan xalqı özünün çoxəsrlik tarixində misli görünməmiş ruh yüksəkliyi, parlaq, unudulmaz, xoşbəxt günlər yaşayır.

Vətənimizin ərazi bütövlüyü bərpa edilib, Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında bizim bayrağımız dalğalanır.

Bu Qələbə bizə igid döyüşçülərimizin, Qarabağ torpağında sülh naminə, ədalətin təntənəsi naminə canlarından keçmiş şəhidlərin qanı bahasına başa gəlib. Bununla əlaqədar həlak olanların ailələrinə səmimi-qəlbdən başsağlığı verir, yaralıların tezliklə sağalmalarını arzu edirik.

Köçkünlərin öz doğma torpaqlarına qayıtması, vəhşicəsinə məhv edilmiş tarixi abidələrin, məscidlərin, məbədlərin və Qarabağın tamamilə dağıdılmış sosial infrastrukturunun bərpa edilməsi üçün qarşıda görüləsi işlər çoxdur. Biz - Rusiyada yaşayan azərbaycanlılar Azərbaycanda baş verən bütün hadisələri böyük həyəcan və diqqətlə izləyirik, Rusiyanın geniş ictimaiyyətinə daim obyektiv informasiya çatdırırıq.

Qələbə münasibətilə bir daha səmimi təbriklərimizi qəbul edin. Sizə və bütün Azərbaycan xalqına cansağlığı, firavanlıq və tərəqqi arzu edirik.

Azərbaycan qalibdir! Qarabağ Azərbaycandır!

*Hörmətlə,*

***Fazil QURBANOV,***
***Rusiyanın Azərbaycan Diaspor Təşkilatları Konfederasiyasının sədri, akademik***

❖❖❖

Zati-aliləri möhtərəm cənab Prezident!

İcazə verin, bir daha Sizi Böyük Qələbə münasibətilə Beynəlxalq Türk Akademiyasının rəhbərliyi adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edim.

Qırx dörd gün davam edən Vətən müharibəsi Sizin misilsiz şücaətiniz, iradə və qətiyyətiniz, qardaş Azərbaycan xalqının və rəşadətli Azərbaycan Ordusunun əzmi, mübarizəsi, birliyi və qalibiyyətə köklənməsi illərdir davam edən standartlara, ədalətsizliyə və haqsızlığa son qoydu. Böyük zəfər həm dünyanın hərb, həm də diplomatiya tarixində Azərbaycanın təkrarsız qalibiyyət nümunəsini yaratdı, Sizin yorulmaz əməyinizin, illərboyu böyük ustalıqla formalaşdırdığınız xarici siyasət və diplomatiyanın, sarsılmaz daxili harmoniyanın, Azərbaycan xalqının birlik və bərabərliyinin rəmzi oldu.

Müharibənin ilk günlərindən etibarən Beynəlxalq Türk Akademiyası açıq mövqeyini ortaya qoydu, ədalətli müharibədə qardaş Azərbaycanın yanında olduğunu və mülki yaşayış məntəqələrinə Ermənistanın xain raket hücumunu kəskin pislədiyini bəyan etdi.

Bununla yanaşı, Akademiya əyani dəstəyini göstərməyə çalışaraq, xeyli müddətdir üzərində işlədiyi "Qarabağ - Azərbaycanın cövhəri: tarixi, mədəniyyəti, təbiəti" kitab-fotoalbomunu Şuşa şəhərinin işğaldan azad edilməsi münasibətilə 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Qazaxıstan Respublikasındakı Səfirliyinin dəstəyi ilə qazax dilində çap etdi. Azərbaycanın uzun illər işğal altında qalan ərazilərindəki tarixi abidələri, bu bölgənin mədəniyyəti, şəxsiyyətləri, təbiəti, eyni zamanda işğala dair faktlar, sənədlərin toplandığı nəfis tərtibatlı kitab-albom bir beynəlxalq təşkilat tərəfindən hazırlanan ilk belə nəşr oldu.

Beynəlxalq Türk Akademiyası bu il UNESCO-nun Parisdəki mənzil-qərargahında keçirməyi planlaşdırdığı, lakin pandemiya səbəbindən təxirə saldığı tədbirləri - Əbdürrəhim bəy Haqverdiyevin 150, Üzeyir Hacıbəylinin 135 illik yubileylərini onların dünyaya göz açdıqları şəhərdə - doğma Şuşada 2021-ci ilin uyğun tarixlərində böyük beynəlxalq tədbirlə qeyd etməyi qərara almışdır. Planlaşdırılan tədbirlərin işğaldan azad edilən, türk dünyası üçün böyük mənəvi dəyərə sahib olan Şuşa şəhərində reallaşdırılmasını istərdik.

Möhtərəm cənab Prezident, bir daha Sizi, qardaş Azərbaycan xalqını tarixi Zəfər münasibətilə təbrik edir, zati-alinizə dərin ehtiramımı çatdırıram.

*Hörmətlə,*

***Darxan KIDIRƏLİ,***
***Beynəlxalq Türk Akademiyasının prezidenti***

*Qazaxıstan Respublikası, Nur-Sultan şəhəri*

## Azərbaycanın və Özbəkistanın xarici işlər nazirləri arasında telefon danışığı olub

Dekabrın 2-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Özbəkistanın xarici işlər naziri Əbdüləziz Kamilov ilə telefonla danışıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər bölgədəki son vəziyyət ətrafında fikir mübadiləsi aparıblar. Noyabrın 10-da imzalanan birgə Bəyanatda nəzərdə tutulan məsələlərin icrasının vacibliyi, eləcə də bölgədə sülh, əmin-amanlıq və təhlükəsizliyin təmin olunması baxımından bu razılaşmanın həyata keçirilməsinin əhəmiyyəti vurğulanıb.

Tərəflər həmçinin ikitərəfli əməkdaşlıq gündəliyinə daxil olan məsələləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

## Azərbaycan XİN Fransa parlamentinin bir qrup üzvünün Dağlıq Qarabağa planlaşdırılan səfərinə münasibət bildirib

Erməni KİV-i Fransa parlamentinin bir qrup üzvünün Ermənistan və Dağlıq Qarabağa səfər edəcəyini, eləcə də burada görüşlər keçirərək, mövcud olan humanitar vəziyyəti yerindəcə qiymətləndirməyi planlaşdırdıqlarını yazırlar.

AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bununla bağlı KİV-in sualını cavablandırıb.

Leyla Abdullayeva deyib: "Azərbaycan Respublikasının onun beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suveren ərazisinə edilən səfərlər ilə bağlı rəsmi mövqeyi bəllidir və bu mövqe dəyişilməz olaraq qalır. Azərbaycan ərazisinə, o cümlədən onun Dağlıq Qarabağ bölgəsinə edilən səfərlər Azərbaycan hökuməti ilə razılaşdırılmalıdır. Azərbaycanın qanunvericiliyini pozan şəxslər müvafiq sanksiyalarla üzləşirlər və onların gələcəkdə Azərbaycan ərazisinə səfərləri məhdudlaşdırılır".

## Laçın rayonunun işğaldan azad edilməsi şanlı qələbəmizin təcəssümüdür

"Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz tərəfindən aparılan 44 günlük müharibə nəticəsində əzəli və əbədi torpaqlarımız düşmən işğalından azad edilməklə, uzun illərdən sonra ölkəmizin ərazi bütövlüyü bərpa edildi".



AZƏRTAC xəbər verir ki, bunu KİV-ə açıqlamasında Milli Məclis sədrinin müavini Adil Əliyev söyləyib.

Adil Əliyev bildirib ki, işğal edilmiş ərazilərimizin azad edilməsi uğrunda rəşadətli Ordumuz misli görünməmiş şücaət göstərdi və düşmənə vurulan ağır zərbələrin nəticəsində Ermənistan məğlub olaraq döyüş meydanından qaçdı. Vətən müharibəsi zamanı düşmən tam şəkildə məğlub oldu, döyüş meydanında başlayan Qələbə yürüşü adekvat olaraq diplomatik masada da dövlətimizin başçısı tərəfindən çox böyük uğurla davam etdirilir.

Dekabrın 1-də Laçın rayonunun işğaldan azad edilməsinin şanlı qələbəmizin təcəssümü olduğunu vurğulayan Milli Məclis sədrinin müavini deyib: "Prezident İlham Əliyevin xarici telekanallara verdiyi müsahibələr zamanı Ermənistanın təcavüzkar siyasətini bir daha dünyanın diqqətinə çatdırması, bütün dünyanın de-fakto olaraq Ermənistanı təcavüzkar ölkə kimi tanımasına gətirib çıxardı. Qeyd etmək lazımdır ki, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə Ermənistan tərəfindən icra edilməsə də, bu vaxta qədər işğalçıya qarşı heç bir tədbir görülməmişdir. Yalnız sentyabrın 27-də erməni təxribatından sonra əks-hücum əməliyyatını uğurla icra edən Azərbaycan Ordusu bu qətnamələrin icrasına nail oldu. Döyüş meydanında qazandığımız uğurlar düşməni Ağdamdan, Kəlbəcərdən və Laçından çıxmağa məcbur etdi. Beləliklə, bu qətnamələrin də icrası təmin olundu, Azərbaycanın ərazi bütövlüyü təmin edildi.

Laçının mühüm strateji əhəmiyyət kəsb etməsi səbəbindən Ermənistan və onun havadarları bu rayonun təhvil verilməsini heç vaxt istəməmişdilər. Lakin Ali Baş Komandanın həm müharibə meydanında, həm də diplomatik müstəvidə göstərdiyi qətiyyət və qazanılmış uğurlar həmin ərazilərin Ermənistan tərəfindən qeyd-şərtsiz işğaldan azad edilməsini təmin etdi. Dövlətimizin başçısının xalqa müraciətində qeyd etdiyi kimi, "Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

Adil Əliyev qeyd edib ki, Laçın rayonunun təhvil verilməsi ilə birgə Bəyanatın daha bir müddəası icra edildi. 28 il ərzində üzərinə götürdüyü öhdəliklərə, beynəlxalq təşkilatların qəbul etdikləri sənədlərə məhəl qoymayan Ermənistan Azərbaycan Respublikası Prezidentinin qətiyyəti iradəsi, şanlı Ordumuzun göstərdiyi şücaət sayəsində məğlub edildi və torpaqlarımızdan çıxmağa məcbur oldu. Yaşasın bizə bu qələbəni bəxş edən Müzəffər Ali Baş Komandan, eşq olsun Azərbaycan Ordusuna!

## *Hulusi AKAR:* "Türkiyə və Rusiya zabitləri Qarabağda atəşkəsin davamlı olması üçün birlikdə xidmət aparacaqlar"

Türkiyə-Rusiya Birgə Müşahidə Mərkəzinin yaradılması və fəaliyyəti ilə bağlı razılıq əldə olundu. Müdafiə nazirlərinin müavinləri birgə fəaliyyətin texniki tərəflərinin müzakirəsini başa çatdırıblar. Müşahidə Mərkəzinin təşkili ilə bağlı rəsmi olaraq heç bir maneə qalmadı. İndi oranın inşası aparılır. Çox qısa vaxtda əməkdaşlarımız Birgə Müşahidə Mərkəzində xidmətə başlayacaqlar.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin milli müdafiə naziri Hulusi Akar rusiyalı həmkarı Sergey Şoyqu ilə noyabrın 11-də videoformatda imzaladığı anlaşma memorandumu əsasında başlanan danışıqlar barədə danışarkən deyib.

Azərbaycanın döyüş meydanında və danışıqlar prosesində böyük uğur qazandığını diqqətə çatdıran nazir bildirib: "Türkiyə və Rusiya generalları birlikdə çalışacaqlar. Birgə Müşahidə Mərkəzində türk və rus zabitlər bərabər xidmət edəcək, atəşkəsə riayət olunmasını birgə müşahidə edəcək və atəşkəsin davamlı olmasına səy göstərəcəklər. Bununla yanaşı, bizim azərbaycanlı qardaşlarımızla təhsil və hərbi təlim sahələrində əməkdaşlığımız davam edir. İnşallah, bu məsələlərdə qardaşlarımız üçün əlimizdən gələni edəcəyik. Haqlı mübarizələrində sona qədər azərbaycanlı qardaşlarımızın yanında olacağıq. Buna heç kimin şübhəsi olmasın".

## Müdafiə Nazirliyi vətəndaşlara müraciət edib

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi vətəndaşlara müraciət edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan müraciətdə "Bir qrup hərbi qulluqçunun səfərbərlik üzrə hərbi xidmətdən tərxis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 dekabr tarixli Sərəncamının icrasının sürətləndirilməsi məqsədilə vətəndaşlara müvafiq sənədləşməni həyata keçirilməsi qaydaları ilə bağlı tövsiyə edilir ki, səfərbərlikdən təxrisedilmə ilə əlaqədar hərbi qulluqçuların aşağıda göstərilən kateqoriyalara aid olmasını təsdiq edən sənədləri (surətləri notarial qaydada təsdiq olunmuş) Azərbaycan Ordusunun müvafiq hərbi hissələrinə deyil, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinə təqdim olunsun:

- üç və ya daha çox uşağı olan;
- himayəsində I dərəcə əlilliyi müəyyən edilmiş şəxs olan;
- himayəsində yetkinlik yaşına çatmayan bacısı və ya qardaşı olan;
- ailənin tək övladı olan;
- ataları və ya qardaşları döyüş əməliyyatları, habelə hərbi xidmət üzrə vəzifələrin icrası zamanı həlak olmuş və ya vəfat etmiş;
- döyüş əməliyyatları zamanı yaralanmış, habelə hərbi-həkim komissiyaları tərəfindən dinc dövrdə hərbi xidmətə yararsız, müharibə dövründə məhdud yararlı sayılan;
- yaxın qohumları Ermənistan Respublikasının hərbi təxribatları və Azərbaycan Respublikasının ərazilərini atəşə tutması nəticəsində həlak olmuş;
- mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq dövlət qeydiyyatına alınmış, fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilmiş və akkreditasiya olunmuş təhsil müəssisələrində, eləcə də onların filiallarında, Azərbaycan Milli Elmlər Akademiyasında və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturalar yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və elmi təşkilatların Siyahısı"nda nəzərdə tutulmuş digər elmi təşkilatlarda əyani təhsilalma formasında bakalavriatda, magistraturada, doktoranturada (adyunkturada), əsas (baza ali) tibb təhsili və rezidenturada təhsil alan".

## *İqumen ALEKSİ:* "Mehriban Əliyevanın mədəniyyətlər arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsi üzrə fəaliyyətinin parlaq nəticələrini mən gözlərimlə görmüşəm"

İtaliyanın Merano şəhərindəki Müqəddəs Nikolay pravoslav kilsəsinin baş keşişi, İqumen Aleksinin (Nikonorov) "Nezavisimaya qazeta"da müsahibəsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, müsahibədə Aleksi ata qeyd edib ki, Qafqazda xristianlıq faktiki olaraq bu dinin yarandığı vaxtdan mövcud olub. Bununla yanaşı, burada xristian ənənələrinin inkişaf və tənəzzül dövrləri olub, lakin onlar heç vaxt yox olmayıb. Həm Qarabağ ərazisində, həm də Azərbaycanın bir çox başqa rayonlarında mövcud olan çoxsaylı məbədlər və monastırlar buna parlaq sübutdur.

"İndiki azərbaycanlılar bu torpaqda mövcud olan həmin dövlətlərin, o cümlədən Qafqaz Albaniyası dövlətinin qanuni xələfləridir, həmçinin bu günümüzə gəlib çatan mədəni və dini abidələrin varisləridir", - deyə İqumen Aleksi vurğulayıb.

Qarabağ ərazisindəki müqəddəs yerlərdən danışan Aleksi ata deyib: "Biz başa düşməliyik ki, eramızın 428-ci ilində erməni dövləti süqut etdi və İranın Sasanilər sülaləsinin canişininə çevrildi. Növbəti yüzilliklərdə müstəqil erməni dövlətinin epizodik bərpasının Qarabağ ərazisinə, ümumiyyətlə, aidiyyəti olmayıb. Ona görə də həmin dövrdə regionda yaranan abidələrin heç biri erməni abidəsi adlandırıla bilməz. Qarabağda qorunub saxlanılan ən mühüm və qədim komplekslər bunlardır: Amaras monastırı (IV əsr), Dadivank monastırı (IX-XIII əsrlər) və Qandzasar monastırı (XIII əsr). Amaras (Xocavənd rayonunda) - birinci Alban arxiyepiskopu Qriqorisin basdırıldığı yerdir, alban çarı Vaçe tərəfindən V yüzillikdə bərpa edilib və tikilib, erkən Orta əsrlər dövründə alban katolikoslarının iqamətgahı olub. Dadivank (Kəlbəcər rayonunda) rəvayətə görə, apostol Faddeyin şagirdi - Dadinin məzarı üzərində qurulub, hazırkı görünüşdə XII əsrin əvvəllərində Aranşahlar nəslindən Xaçen hökmdarları tərəfindən tikilib. Qandzasar (Kəlbəcər rayonunda) - alban knyazlarının ata-baba sərdabəsidir, Həsən Calal tərəfindən tikilib, XIV əsrdən alban katolikoslarının iqamətgahı olub. Əsasən XIII əsrə aid olan və müxtəlif dərəcədə qorunub saxlanmış 15-ə yaxın məbəd mövcuddur. Qafqaz Albaniyasının ərəblər tərəfindən işğalından sonra regionun xristian əhalisi ərəb qoşunlarının keçə bilmədiyi dağlıq yerlərə və ölkənin inzibati rayonlarına (Qarabağda) toplanır. Faktiki olaraq bu dövrdə Qarabağda alban dini memarlığı yaradılır. Bununla belə, nüfuzlu erməni tarixçisi Suren Yeremyan XIII əsrin tarixçisi Kirakos Qandzaketsinin "alban rəislərinin yalnız hansısa hissəsi erməni dilini bilirdi, eyni zamanda Qarabağ əhalisi öz doğma dilində danışırdı" sözlərini sitat gətirir.

Ehtimal etmək olar ki, həmin vaxtdan da bərpa işlərində erməni yazılarından istifadə edilməyə başlanıb. Bəli, burada monofizitlər dua edə bilərdilər, onları, o cümlədən erməni əsilli ustalar da bərpa edə bilərdilər. Onların adını erməni tarixçiləri öz əsərlərində yada sala bilərdilər, lakin bütün bunlar Qafqaz Albaniyasının dini və mədəni abidələrini ermənilərinki edə bilməz!"

İqumen Aleksi öz müsahibəsində rusiyalı mədəniyyət xadimlərinin UNESCO-ya müraciəti mövzusuna toxunub. Müraciətdə Qarabağ irsinin eynilə Suriyanın Palmira şəhərinin taleyini gözləyəcəyi qorxusu ifadə olunur. O deyib: "Hər bir xalqın mədəni irsi, hər şeydən əvvəl, dövrlərin varisliyini təmin edən, insanları öyrədən və tərbiyə edən, xalqın ən gözəl cəhətlərini üzə çıxaran qiymətli sərvətdir. Buna görə də tarixi abidələrin qorunmasına xüsusi diqqət ayırmaq mühümdür. Düşünmək olar ki, sivilizasiyalı dünyada bunu hamı anlayır. Azərbaycan isə özünün ən yeni tarixində mədəniyyət və tarixi abidələrinə qayğı ilə yanaşmanın etalon nümunəsini göstərir, həm də bu münasibət təkcə Azərbaycanın öz abidələrinə aid deyil.

Son 27 ildə müstəqil Azərbaycan dövləti mürəkkəb siyasi, iqtisadi, digər problemlərin həllinin vacibliyinə baxmadan tarixi abidələrin qorunmasına və beynəlxalq səviyyəli sahəvi mütəxəssisləri cəlb etməklə bu abidələrin mükəmməl, dəqiq bərpasına xüsusi diqqət ayırıb. Buraya təkcə qədim böyük şəhərlər, qalalar, gözətçi qüllələri, xan sarayları, məscidlər deyil, həm də xristian məbədləri, sinaqoqlar aiddir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva UNESCO-nun beynəlxalq səviyyədə tanınmış xoşməramlı səfiridir. Heydər Əliyev Fondunun vəsaitləri hesabına Romada Müqəddəs Marsellina və Pyotr qədim xristian katakombaları bərpa edilib, Müqəddəs Sebastyan bazilikası kompleksinin qədim xristian sarkofaqlarının bərpası üzrə işlər davam edir. Bu işlərin parlaq nəticələrini mən gözlərimlə görmüşəm!

İtaliyalı jurnalistlər Azərbaycanın birinci xanımından "Müsəlman dövlətindən - Azərbaycandan olan Fond nə üçün xristian irsinin bərpa işlərini maliyyələşdirir?", - deyə soruşanda xanım Əliyeva belə cavab verib: "Azərbaycan Avropa ilə Asiyanın, Şərq ilə Qərbin qovuşuğunda yerləşir və bu coğrafi mövqe ölkəmizi xarakterizə edən dərin müxtəlifliyə öz təsirini göstərib. Azərbaycan ərazisində yaşayan xalqlar həmişə bir-birinə dost və qardaş olublar, çoxsaylı dini konfessiyaların mövcud olması bizim böyük sərvətimizdir".

Əgər Qarabağın mədəni irsinə qayğı göstərmək barədə Azərbaycanın niyyətlərinə və bacarığına şübhə edən varsa, qoy onlar Azərbaycana gəlsinlər, bu ölkənin şəhər və kəndlərini ziyarət etsinlər. O zaman şübhələr öz-özünə çəkiləcək".

## Cənubi Qafqaz regionu təhlükəsizlik, əməkdaşlıq və firavanlıq baxımından yeni mərhələyə qədəm qoyub

Milli Məclisin deputatı, Azərbaycanın ATƏT Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Azay Quliyev assambleyanın Büro iclasında çıxış edib.

AZƏRTAC xəbər verir ki, ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev iclasda Büro üzvlərini Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən noyabrın 10-da imzalanmış Bəyanat çərçivəsində dekabrın 2-dək görülən işlər barədə məlumatlandırıb. O deyib ki, bu razılaşmanın müddəalarına əsasən, 2020-ci il dekabrın 1-dək Ermənistan Azərbaycanın işğal altında qalan ərazilərini, yəni Ağdam, Kəlbəcər və Laçın rayonlarını geri qaytarıb. Bununla da Azərbaycanın ərazi bütövlüyü bərpa edilib.

ATƏT PA-nın vitse-prezidenti bildirib ki, hazırda Azərbaycan hökuməti məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz qayıtması üçün işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi məqsədilə müvafiq addımlar atır. Ermənistanın işğal zamanı Azərbaycan ərazilərində törətdiyi iqtisadi və humanitar ziyanın qiymətləndirilməsi həyata keçirilir. Bundan əlavə, 30 illik işğal ərzində tamamilə dağıdılmış və xarabalığa çevrilmiş bütün şəhərlərimizin, qəsəbələrimizin və kəndlərimizin yenidən qurulmasını əhatə edəcək böyük qayıdış planı üzərində işlər aparılmaqdadır.

Azay Quliyev deyib: "Dağlıq Qarabağ münaqişəsi" ifadəsinin artıq mövcud olmamasına və yalnız tarixə istinad edilərkən istifadə olunmasına baxmayaraq, bölgədə uzunmüddətli sülhün və Ermənistanla Azərbaycan arasında barışığın təmin olunması üçün hələ bir çox iş görməliyik. Əminəm ki, bütün əsassız ərazi iddiaları, düşmənçilik və nifrət ritorikası keçmişdə qalmalıdır".

Azay Quliyev Cənubi Qafqaz regionunun təhlükəsizlik, əməkdaşlıq və firavanlıq baxımından tamamilə yeni bir mərhələyə qədəm qoyduğunu bildirib. O bildirib ki, ATƏT Parlament Assambleyası bu həyati əhəmiyyətli məqsədlərə çatmaq üçün mühüm rol oynaya bilər və oynamalıdır.

"Lakin təəssüf ki, bəzi ATƏT ölkələri, xüsusən də Minsk qrupunun həmsədri və BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan, üzərinə bitərəf və ədalətli vasitəçilik missiyasını götürən Fransanın həyata keçirdiyi qeyri-adekvat cəhdlər müşahidə edilir. Son 2 aydakı hadisələrə nəzər yetirsəniz Fransanın Ermənistanın işğalçı əməllərinə göz yumaraq bu ölkəyə birtərəfli qaydada dəstək verməsini, münaqişə tərəflərinə qarşı qeyri-konstruktiv və qərəzli yanaşmasını asanlıqla görə bilərsiniz. 44 günlük aktiv hərbi əməliyyatlar zamanı Fransa mediasında 1000-dən çox ermənipərəst və anti-Azərbaycan yönümlü məqalələr və videomateriallar yayımlandı. Bununla yanaşı, real vəziyyəti göstərməyə çalışan jurnalistlər təqib olundu, onlar həyatlarına qarşı təhdidlərlə qarşılaşdılar. Fransa Senatı noyabrın 25-də Fransa hökumətini Ermənistanın qurduğu mövcud olmayan və qanunsuz rejimi tanımağa çağıran əsassız qətnamə qəbul etdi. Bu qərar Fransanın beynəlxalq məsuliyyəti və öhdəliklərinə tamamilə ziddir, eyni zamanda vasitəçi mandatı da daxil olmaqla beynəlxalq hüququn əsas norma və prinsiplərini kobud şəkildə pozur. Noyabrın 26-da Azərbaycan Respublikasının Milli Məclisi Fransa Senatının bu qanunsuz qətnaməsini qətiyyətlə rədd etdi və Azərbaycan hökumətini Fransanın ATƏT-in Minsk qrupunun həmsədri vəzifəsindən uzaqlaşdırılmasını və Fransa ilə diplomatik və iqtisadi əlaqələrin dayandırılmasını nəzərdən keçirməyə çağırdı. Ümid edirəm ki, Fransa hökuməti beynəlxalq öhdəliklərinə hörmət göstərərək beynəlxalq hüququ, xüsusən də Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı ilə bağlı norma və prinsipləri pozmaqdan çəkinəcək", - deyə o, əlavə edib.

## QDİƏT PM və Baltik Assambleyasının Daimi Komitələrinin birgə iclası keçirilib

Dekabrın 2-də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT) və Baltik Assambleyasının Daimi Komitələrinin (BADK) onlayn formatda birgə iclası keçirilib. İclasda dünyada dənizlərin qorunması, iqlim dəyişikliyi və biomüxtəliflik, COVID-19 pandemiyası ilə mübarizə üsulları mövzuları müzakirə olunub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclası giriş sözü ilə açan Milli Məclisin Hesablayıcı komissiyasının sədri, QDİƏT PM-in vitse-prezidenti Eldar Quliyev iştirakçılara bildirib ki, uzaq coğrafiyalarda yerləşən, fərqli ənənələrə, dinlərə və mədəniyyətlərə sahib olan Baltik və Qara dəniz bölgələrini bir çox ümumi maraqlar və problemlər birləşdirir. Bir ildən artıqdır ki, bütün dünya COVID-19 pandemiyası ilə mübarizə aparır. Bu dövrdə parlamentlərin üzərinə də böyük məsuliyyət düşüb. Qurumların üzvü olan ölkələrin parlamentləri yeni reallıqlara uyğun olaraq müasir texnologiyalardan istifadə etməklə beynəlxalq fəaliyyətlərini davam etdirib, COVID-19 böhranının iqtisadi və sosial təsirlərinin azaldılmasına yönəlik dəstək tədbirləri keçiriblər. O, qeyd edib ki, pandemiyanın insan sağlamlığını ciddi şəkildə təhdid etməsi bütün səviyyələrdə beynəlxalq əməkdaşlıq və koordinasiyanın



gücləndirilməsini tələb edir. İndiki məqamda yalnız sıx əlaqələr və yardım tədbirləri virusun ölkələrdə mənfi təsirlərini azalda bilər.

Eldar Quliyev vurğulayıb ki, qloballaşma prosesləri insan sağlamlığı və rifahının ayrılmaz hissəsi olan ətraf mühitin mühafizəsini də zəruri edir. QDİƏT dövlətləri beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyəti ilə birlikdə konkret nəticələrə yönəlmiş konstruktiv dialoqa getməlidirlər. Çirkli ərazilərin bərpası, ekoloji problemlərin qarşısının alınması, mənfi nəticələrin aradan qaldırılması məqsədilə təsirli ətraf mühit siyasəti həyata keçirilməlidir. O, bundan sonra QDİƏT və Baltik Assambleyası arasında daha səmərəli, konstruktiv əməkdaşlığa ümid etdiyini bildirib. Koronavirusla mübarizədə bütün ölkələrə gözlənilməz təsirlərdən uzaq olmağı və sağlamlıq arzulayıb.

Onlayn iclasda Baltik Assambleyasının prezidenti Piri Niemi, İsveçin xarici işlər naziri Ann Linde, Türkiyənin QDİƏT PM-dəki nümayəndə heyətinin rəhbəri Cemal Öztürk, Yunanıstanın QDİƏT PM-dəki nümayəndə heyətinin rəhbəri Semion Kedikoğlu, Stokholm Universiteti Baltik Dəniz Mərkəzinin Elmi direktoru Kristof Humborq çıxış edərək pandemiya ilə mübarizədə qarşılıqlı əməkdaşlıq, ətraf mühitin mühafizəsi ilə bağlı fikirlərini söyləyiblər. Mövzuları əhatə edən ekspert rəyləri dinlənilib, cari məsələlər müzakirə edilib.

Onlayn toplantıya rumıniyalı deputat, QDİƏT PM-in İqtisadiyyat, ticarət, texnologiya və ekologiya məsələləri üzrə komitəsinin sədri Katalin Zamfiranın çıxışı ilə yekun vurulub.

Publisistik düşüncələr

# Günəşli payızın qırx dörd anı



## Qüdrətli sərkərdə və müdrik Prezident İlham Əliyev bizi qalib xalqa çevirdi, bölgədə yeni reallıqlar yaratdı

İlıq bir payız gecəsi başlayan Vətən müharibəmiz 44 gün çəkdi. Fikir verdinizsə, sanki təbiət də bizə tərəf idi - öz günəşi və isti nəfəsi ilə. Şəxsən mən havanın bu qədər uzun müddət sabit, küləksiz və yağmursuz keçdiyi başqa bir payız xatırlamıram. Əks-təqdirdə dağlarda döyüş çox çətin olardı. Bizi Qarabağımıza qovuşduran günəşli payız günlərinin hər birində, hər anında kitablara sığmayan qəhrəmanlıq dastanı yazılırdı. Bu dastanı Müzəffər Ali Baş Komandan İlham Əliyev, düşmənin başına gecə-gündüz od ələyən Azərbaycan Əsgəri, yumruq kimi birləşərək bir ürək kimi vuran Azərbaycan Xalqı yazırdı.
Bu 44 gün Qarabağın 30 illik qara taleyini dəyişdi, bir milyon insanın məcburi köçkün adını silib atdı. Bizi qalib xalqa çevirdi, bölgədə yeni reallıq yaratdı...

### Allah dərgahında qəbul olunan dualar

Ağdam, 23 noyabr. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam məscidinin divarını öpür, ayaqqabılarını çıxarıb içəri girirlər. Bu duyğusal mənzərəni əks etdirən videogörüntülərə təkrar-təkrar baxıram. Əziz oxucular, siz də baxın (video.azertag.az/site/video/107767). Məscidin hələ toz-torpaqdan təmizlənməmiş döşəməsində ayaq izləri qalır. Mehriban xanım əlində tutduğu "Qurani-Kərim"i öpərək Prezidentə verir. İlham Əliyev də Quranı öpüb stolun üstünə qoyur. Hər ikisi üzünü Allah dərgahına tutaraq dualar edir.

Sonradan məlum olacaq ki, Prezident həmin "Qurani-Kərim"i Məkkədən gətirib və onu Ağdam məscidinə bağışlayıb. Öz dilindən eşitdik ki, dörd dəfə Məkkə ziyarətində olub - bir dəfə rəhmətlik atası Ulu Öndərimizlə, üç dəfə isə Prezident kimi: "Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq. Bu gün burada, vandallar tərəfindən dağıdılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb".

Prezidentimizin Ağdam məscidi önündəki bu tarixi çıxışını dinləyərkən Mehriban xanımın Vətən müharibəsinin ilk günlərində etdiyi duaları xatırlayıram: "Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun! Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!".

Vaxtilə Ulu Öndərimiz Heydər Əliyevin Məkkəni ziyarət etməsi yadıma düşür. Jurnalistlər ondan nəyə dua etdiyini soruşanda demişdi: "Qarabağ üçün, Azərbaycan və xalqımız üçün dualar etdim".

Ötən 30 ildə bütün xalqımızın, dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir soydaşımızın dilində də eyni dualar səslənib. Şükürlər olsun, Qadir Allah bu duaları eşitdi. Göydə Uca Yaradanın köməyi, yerdə Prezidentimizin yenilməz iradəsi və rəşadətli Ordumuzun şücaəti sayəsində yağı düşməni diz çökdürdük. Müqəddəs Qarabağ torpağını öpmək bizə nəsib oldu...

### Ata vəsiyyətini yerinə yetirən qüdrətli sərkərdə

Noyabrın 8-də Şuşa işğaldan azad olunan gün Müzəffər Ali Baş Komandan İlham Əliyev Fəxri xiyabana gedərək Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdi, Ümummilli Liderin ruhu qarşısında baş əydi. Həmin gün Şəhidlər xiyabanından xalqa etdiyi müraciətində qəlbləri riqqətə gətirən bu sözləri dedi: "...Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!"

Bu tarixi müraciəti dinləyərkən Ulu Öndərimizin Qarabağ münaqişəsini həll etmək üçün göstərdiyi aramsız səyləri, keçirdiyi gərgin günləri, əsəb sarsıntılarını xatırladım. Mən Heydər Əliyevin dövlətçilik fəaliyyətinin demək olar, bütün məqamlarını, eləcə də xarici səfərlərini, dövlət və hökumət başçıları ilə görüşlərini, münaqişənin həlli ilə bağlı apardığı çoxsaylı danışıqları işıqlandıran jurnalistlərdən biri kimi bunların şəxsən şahidiyəm. İlk vaxtlar xaricə səfər edəndə özü ilə xəritə götürür, böyük auditoriyalarda görüşləri zamanı Qarabağın kimə məxsus olduğunu xəritə üzərində səbirlə izah edirdi. O vaxtlar dünyada bir çoxlarında, hətta siyasətçilərdə erməni lobbisinin təsiri altında yanlış təsəvvürlər formalaşmışdı və Ulu Öndər Qarabağ haqqında əsl həqiqəti çatdırmaq üçün hər bir mümkün vasitəyə əl atmalı olurdu. Həyatının sonlarına yaxın yaşına, səhhətindəki problemlərə baxmayaraq, bir təyyarədən düşüb digərinə minir, okeanlar aşırdı. Yadımdadır, 2001-ci il martın 5-də Fransaya səfər etdi. Bundan heç bir ay keçməmiş (aprelin 3-də) uzaq Amerikaya getdi. Parisdə, Ki-Uestdə günlərlə sürən çətin danışıqlar apardı. Hər dəfə münaqişənin həlli məsələsi yaxınlaşanda sanki hansısa gözəgörünməz qüvvə sülh prosesini pozurdu.

Sülh, ya hərb? Bu sual Heydər Əliyevin də gündəmində idi. Arxivimi araşdıranda illər öncə böyük uzaqgörənliklə dediyi, bu günümüzlə səsləşən çıxışının lent yazısına rast gəldim. Həmin çıxışdan kiçik bir hissəni olduğu kimi təqdim edirəm: *"... Həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".*

Ulu Öndərimiz bu qəti inamını dilə gətirəndə Azərbaycan ayaq üstə yenicə dayanmağa başlamışdı. O vaxt işğalçı qoşunları torpaqlarımızdan güc yolu ilə çıxara biləcək ordumuz, yetərincə silahımız yox idi. Heydər Əliyevin dediyi zaman təxminən 20 il sonra yetişdi. Oğul İlham Əliyev 17 illik prezidentliyi dövründə qüdrətli bir Azərbaycan, güclü bir ordu qurdu. Elə bir ordu ki, bu gün dünyanın 50 ən güclü ordusu sırasında yer alır. Elə bir ordu ki, arsenalında çoxlarının həsəd apardığı ən müasir silahlar var. Məhz bu ordu nəyi nə vaxt etmək lazım gəldiyini bilən Ali Baş Komandanın əmrini yerinə yetirərək mənfur düşməni iti qovan kimi qovub torpaqlarımızdan çıxardı. Azərbaycan əsgəri öz qanı, canı bahasına 30 illik işğala son qoydu.

### Nəyin bahasına olursa-olsun

Son 17 ilin tarixini vərəqləyən hər kəs görə bilər ki, İlham Əliyev müharibə istəmirdi. İstəyirdi ki, torpaqlarımız qan tökülmədən, şəhid verilmədən azad olunsun. Ona görə də danışıqlara ümidlə gedir, ATƏT-in Minsk qrupunun nə vaxtsa əməli addımlar atacağını gözləyirdi. Səbirlə davranır, amma, eyni zamanda, öz şərtlərini irəli sürür, xəbərdarlıq edirdi: Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına əsla yol verməyəcək, işğal altındakı torpaqlarımız nəyin bahasına olursa-olsun azad ediləcək. Bu, o demək idi ki, Ermənistan Qarabağdan xoşluqla çıxmasa, hərbi yoldan başqa variant qalmayacaq.

Minsk qrupunun həmsədr ölkələri, eləcə də bütün beynəlxalq təşkilatlar, böyük dövlətlərin liderləri isə dönə-dönə eyni sözü təkrarlayırdılar: münaqişə yalnız sülh yolu ilə həll oluna bilər, onun hərbi həlli yoxdur. Prezidentimiz nə deyirdi? Gəlin yadımıza salaq: Lazım olsa, torpaqlarımızı hərbi yolla azad edəcəyik, müharibə heç zaman istisna olunmur. Prezident İlham Əliyev çıxışlarının birində bu barədə belə dedi: "Danışıqlar dövründə müxtəlif mərhələlərdə dəfələrlə təklif irəli sürülürdü ki, Azərbaycan tərəfi müharibə yolundan imtina etsin. Mən heç vaxt buna razılıq vermirdim. Ondan sonra məni ittiham etməyə başlayırdılar ki, İlham Əliyev müharibəyə başlamaq istəyir. Mən deyirdim ki, məsələni sülh yolu ilə həll etmək istəyirəm. Amma həll etmək istəyirəm. Ermənistan nə istəyirdi? Status-kvonu saxlamaq, əbədi etmək. Hesab edirdi ki, əgər 26-27 il ərzində buna nail olubsa, deməli, bundan sonra da nail olacaq".

Səbrin də bir sonu olur. Ermənistanın baş naziri Paşinyanın əndazəni aşan hərəkətləri, sərsəm bəyanatları sülh prosesinin üstündən xətt çəkdi, xalqımızın, Prezidentimizin səbir kasasını daşdıran son damla oldu. Paşinyan deyirdi ki, "Qarabağ Ermənistandır. Nöqtə". Deyirdi, Cəbrayıla yol çəkdirəcək. İnauqurasiyasını Şuşada keçirdi, içib keflənərək Cıdır düzündə rəqs elədi. Parlamenti Şuşaya köçürmək, "yeni ərazilər üçün yeni müharibə" planlarından danışdı. Bizi hədələdi ki, müharibə başlasa, Bakıyadək gəlib çıxacaq. Ardınca Tovuz sərhədində hərbçilərimizə xaincəsinə hücum təşkil olundu, Azərbaycana təxribat qrupu göndərildi. Nəhayət, sentyabrın 27-sinə keçən gecə Qarabağda hərbi təxribatlar törədildi və Ali Baş Komandan elə həmin gecə əks-hücum əmri verdi.

Sonra nələr baş verdiyi hamıya məlumdur. Qarabağa zəfər yürüşümüzün hər günü, hər saatı, hər anı AZƏRTAC tərəfindən salnamələşdirilib və bu materiallar səkkiz dildə yayılıb. İstədiyiniz vaxt saytımızı açıb baxa bilərsiniz (CƏBHƏ XƏBƏRLƏRİ; НОВОСТИ С ФРОНТА; FRONTLINE NEWS; NACHRİCHTEN VON DER FRON; NOUVELLES DE LA LİGNE DE FRONT; NOTICIAS DE FRONTERA; أخبار من خط الجبهة; 前线新闻).

Şanlı Ordumuza cəmi 44 gün kifayət etdi ki, düşmənin başını dəmir yumruğu ilə əzsin, Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Murovdağda, Suqovuşanda, Hadrutda, Şuşada, ümumilikdə, 5 şəhər, 4 qəsəbə və 286 kənddə dövlət bayrağımızı ucaltsın, düşməni ağ bayraq qaldırmağa məcbur etsin.

İkinci Qarabağ müharibəsi öz tempi, müasir texnikanın, xüsusən PUA-ların birbaşa döyüş meydanında geniş tətbiqi, əməliyyatların məharətlə idarə olunması, zabit və əsgərlərin döyüşkənliyi və digər parametrləri baxımından dünya hərb tarixinə XXI əsrin müharibəsi kimi yazıldı. Artıq beynəlxalq aləmdə inkişafın Azərbaycan modeli ilə yanaşı, Azərbaycanın müharibə modelindən də danışılır.

### İyirmi birinci əsrin müharibəsi

Böyük Qələbə ilə başa çatmış Vətən müharibəsinin gedişini, döyüş taktikasını təhlil etmək və qiymətləndirmək hərbi ekspertlərin, mütəxəssislərin işidir. Qırx dörd günlük bu müharibə barədə bəlkə də 44 il danışılacaq. Mən isə sadəcə olaraq, bəzi düşüncə və müşahidələrimi bölüşməklə kifayətlənəcəyəm.

Ermənistan 30 il ərzində öz havadarlarını, eləcə də Fransadan hərbi mühəndislər cəlb edərək cəbhə boyunca üç-dörd, bir sıra istiqamətlərdə hətta beş müdafiə xətti, eşelonlanmış dərin müdafiə sistemləri, keçilməsi çox çətin olan istehkamlar qurmuşdu. Əsas strateji yüksəkliklər düşmənin əlində idi. Ərazinin mürəkkəb relyefi, dağ-dərə onlar üçün əlavə üstünlüklər yaradırdı. Üstəlik, erməni tərəfi Qarabağa havadarlarının onlara peşkəş etdiyi azı 2-3 milyard dollarlıq hər cür silah yığmışdı.

Görünür, işğalçı ordu keçilməz saydığı üçqat, beşqat müdafiə xətlərinə, mühəndis-istehkam qurğularına, arsenalındakı saysız-hesabsız müdafiə və hücum silahlarına güvənirdi. Paşinyan da buna güvənərək ağzı köpüklənə-köpüklənə danışır, bizə hədə-qorxu gəlirdi. Bu silahlardan, hərbi texnikadan bir neçəsinin adını çəkmək kifayətdir ki, əyani təsəvvür yaransın: "S-300", "S-125", "Osa", "KUB", "TOR", "KRUQ", "Toçka-U" zenit-raket kompleksləri, "Elbrus" əməliyyat-taktiki raket kompleksi, özüyeriyən "Akasiya", "Qvozdika" artilleriya qurğuları, "Smerç"lər, "Qrad"lar, "Uraqan"lar, habelə "Su-25" təyyarələri, PUA-lar, tank əleyhinə vasitələr, radiolokasiya stansiyaları, ballistik raketlər, daha nələr və nələr...

Müzəffər Ali Baş Komandan İlham Əliyev dekabrın 1-də Laçın rayonunun işğaldan azad olunması ilə əlaqədar xalqa etdiyi müraciətində düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikasının siyahısını açıqladı. Saymaqla qurtarmır. Bəzilərinin adını ilk dəfə eşitdiyimiz bu silah-sursatın, hərbi texnikanın gücünü, qiymətini mütəxəssislər yaxşı bilir.

İkinci Qarabağ müharibəsi göstərdi ki, Azərbaycan Ordusu texniki cəhətdən ən müasir silahlarla təchiz olunub. Xüsusən Türkiyə "Bayraqdar"larının, İsrail PUA-larının dəqiq zərbələri nəticəsində döyüşlərin ilk günlərində düşmənin yüzlərlə hərbi texnikasını, minlərlə əsgərini məhv etmək mümkün oldu. XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edildi. Müdafiə Nazirliyinin yaydığı həmin videogörüntülər bir çox ölkələrdə öyrənilir və öyrəniləcək, hərbi kitablara salınacaq.

Məsələ təkcə silahdadırmı? Prezidentimizin dəfələrlə vurğuladığı kimi, bayrağı qaldıran, onu düşmən mövqeyinə, azad edilmiş torpaqlara sancan əsgər və zabitdir. Bizim əsgər və zabitlərimiz aslan kimi vuruşdular. Azərbaycan əsgəri düşmənin keçilməz hesab etdiyi müdafiə xətlərini öz qəhrəmanlığı, peşəkarlığı sayəsində yardı, parlaq və misilsiz Şuşa zəfərinə imzasını atdı...

### Müasir hərb tarixində misli görünməmiş Şuşa əməliyyatı

Vətən müharibəsinin təfərrüatlarına hələ tam aydınlıq gəlməyib. Amma indidən əminliklə demək olar ki, Şuşanın işğaldan azad edilməsi əməliyyatı tarixdə əbədi qalacaq.

Qarabağın tacı, döyünən ürəyi Şuşa təbii istehkam olduğundan şəhərə tanklarla, yaxud digər ağır silahlarla girmək mümkün deyildi. Onu almağın iki variantı vardı. Birinci halda şəhərdəki düşmən qüvvələrini hava zərbələri, top atəşləri ilə məhv etmək olardı. Komandanlıq buna getmədi. Çünki şəhərin bombardman edilməsi böyük dağıntılara səbəb olacaqdı. Buna görə də alternativ variant kimi əlbəyaxa döyüş taktikası seçildi. Qəhrəman əsgər və zabitlərimiz yüngül silahlarla qalın meşələrdən, dərin dərələrdən keçərək, qayalar, dağlar aşaraq düşməni üzbəüz döyüşdə məhv etdi.

Şuşa döyüşlərinin getdiyi vaxt Xankəndidə olan xarici jurnalistlərdən biri ermənilərin düşdüyü acınacaqlı vəziyyəti belə təsvir edirdi: Şuşanı müdafiə edənlər pərən-pərən düşüblər. Hərbi təcili yardım maşınlarında onlarca yaralı qan içində Xankəndi xəstəxanasına daşınır. Qalan döyüşçülər yorğun halda yolboyu hərbi geyimlərini çıxarıb ataraq dağdan enirlər. Təcili yardım maşınları aramsız olaraq gedib-gəlir. Avtomobildə yaralı əsgərlər bir-birinin üstünə qalaqlanıb. Onların aldığı xəsarətlər əlbəyaxa döyüşlər getdiyinin sübutudur. "Le Monde" nəşrinin həmin günlərdə yaydığı başqa bir reportajda deyilirdi ki, Ermənistan ordusunun məğlubiyyətə uğradılmış hərbçiləri yaralı halda Şuşanı tərk edərək Xankəndiyə qaçırlar.

Müzəffər Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də xalqımıza Şuşanın azad edilməsi müjdəsini verdi. Şuşa zəfəri, əslində, müharibənin taleyini həll etdi. Ertəsi gün daha 70-dən çox kəndin azad olunması xəbəri gəldi və bundan bir gün sonra Paşinyan Azərbaycan Prezidentinin şərtlərini qəbul edərək kapitulyasiya aktına imza atmağa məcbur oldu. Nəticədə noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları bir güllə atılmadan, heç bir şəhid verilmədən azad edildi.

Azərbaycan Ordusu azadlıq ordusu, Ermənistan ordusu işğalçı ordudur. Azərbaycan əsgəri öz torpağında vuruşurdu, erməni əsgəri özgə torpağında. Bu, bizim mənəvi üstünlüyümüz, silahdan heç də az rol oynamayan yenilməz döyüş ruhu idi. Baxın, erməni əsgərləri kütləvi surətdə fərarilik edirdilər, hətta qaçmasın deyə ayağı zəncirlənmiş əsgəri gördük. Azərbaycan əsgəri isə yarası sağalmamış ön cəbhəyə can atırdı. Ermənistanda hərbi xidmətdən yayınmaq üçün hər vasitəyə əl atırdılar. Azərbaycanda isə cəbhəyə getmək üçün minlərlə gənc növbəyə yazılmışdı. Fərqimiz həm də bunda idi.

Vətən müharibəsi, onun şanlı epizodu olan Şuşa əməliyyatı kimin kim olduğunu göstərdi. Azərbaycan və Ermənistanın bu təkbətək döyüşü "məğlubedilməz erməni ordusu" mifini darmadağın etdi, həm düşmənə, həm də dünyaya bizim gücümüzü göstərdi, haqqın və ədalətin təntənəsi oldu...

### Üç cəbhədə mübarizə və hər üçündə qələbə

Müasir müharibələrin taleyini təkcə silah həll etmir. Tam qələbə döyüş meydanında, informasiya məkanında və diplomatik müstəvidə paralel mübarizə sayəsində əldə olunur. Azərbaycanın Vətən müharibəsində qazandığı möhtəşəm Qələbə bunun ən yeni sübutu, illər boyu həyata keçirilən ordu quruculuğunun, məqsədyönlü xarici siyasətin, aramsız diplomatik səylərin nəticəsidir.

Bu baxımdan dövlət başçısının Qarabağda hərbi əməliyyatların aktiv fazasında xarici KİV-ə verdiyi çoxsaylı müsahibələri diqqəti xüsusilə cəlb edir. Prezident İlham Əliyev dərin biliyi, dəmir məntiqi, təkzibolunmaz arqumentləri ilə ermənipərəst medianın qarayaxma kampaniyasını zərərsizləşdirə bildi, informasiya cəbhəsini təkbaşına yardı. Xüsusi tapşırıq alan bəzi Qərb müxbirləri mətləbi yayındırır, feyk məlumatlara istinad edərək Azərbaycan tərəfinin ünvanına əsassız ittihamlar səsləndirirdilər. Münaqişədə Türkiyənin iştirakı, F-35-lərdən istifadə, Suriya və Liviyadan muzdlular cəlb olunması, atəşkəsin pozulması və bir çox digər qıcıqlandırıcı suallar dönə-dönə təkrarlanırdı. Dövlət başçısı hər dəfə bu ittihamları təkzibolunmaz fakt və dəlillərlə puça çıxarır, Qarabağın tarixindən, münaqişənin səbəblərindən danışır, fürsətdən istifadə edərək, dünyaya əsl həqiqətləri çatdırırdı.

Almaniyanın ARD telekanalına müsahibədəki bir suala və Prezidentin cavabına diqqət edək.

Sual: "Biz orada, bu ərazidə olduqda bizdə bir sual ortaya çıxdı. Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır?"

Cavab: "Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir".

Cavab qısa və lakonikdir. Amma elə dərin məna kəsb edir, elə təsirlidir ki, inanmıram bir də hansısa qərbli müxbir bizim Prezidentə buna bənzər sual ünvanlasın.

Ötən 17 ilə nəzər salsaq görərik ki, Prezident İlham Əliyev Dağlıq Qarabağ məsələsinin daim gündəlikdə qalması üçün əlindən gələni edib. Bütün nitq və çıxışlarında, beynəlxalq təşkilatların tribunalarında, dünya liderləri ilə bütün görüşlərində, müsahibələrində bu barədə danışıb. Çalışıb ki, təcavüzkarın və zərərçəkmiş tərəfin kim olduğunu hər kəs bilsin. İndi dünyada hamı bunu bilir. Vətən müharibəsinin uğurunu şərtləndirən əsas amillərin biri də məhz budur.

Döyüş meydanındakı qələbəyə gəlincə, müharibənin sonunda yaşanan tam fərqli iki mənzərəni təsvir etmək yetər: Cəbhənin bir tərəfində qalib Ordunun məğrurcasına dayanmış Müzəffər Ali Baş Komandanı İlham Əliyev, digər tərəfində ordusu dağılmış, rəzil duruma düşmüş Paşinyan. Xalqımız öz lideri İlham Əliyevin portretini başı üzərinə qaldırır. Paşinyan isə lağa qoyulur, ona lətifələr qoşulur.

"Cəbrayıla yol çəkirdin, Paşinyan. Nə oldu? Hanı o yol? Bəs Şuşada parlament binası tikirdin, nə oldu? Cəhənnəmə getdi", - Prezidentimizin bu sözləri insanlar arasında zərb-məsələ çevrilib. Biri dediyinə əməl etməyəndə onu məsxərəyə qoyub soruşurlar: "Nə oldu bəs, Paşinyan?"...

### Yandırılmış torpaq və sabaha boylanan Qarabağ

Keçmiş müharibələrdə "Yandırılmış torpaq" adlandırılan bir taktika vardı. İşğalçı ordu geri çəkilmək zorunda qalanda hər şeyi dağıdır, yaxud talayıb aparır, apara bilmədiyinə od vurub yandırırdı. Bu, həm də ona görə edilirdi ki, yerli əhali, torpağın əsl sahibi bir daha o yerlərdə məskunlaşa bilməsin. 1977-ci ildə Cenevrə Konvensiyasının bir nömrəli Protokolunun 54-cü maddəsi ilə "Yandırılmış torpaq" taktikası qadağan olunub və belə əməllər müharibə cinayəti sayılır.

Ermənilər XXI əsrdə sivil dünyanın gözü qarşısında ibtidai icma dövrünə xas olan bu taktikanı işlədirlər. Prezidentimizin dediyi kimi, elə bil bu yerlərdən vəhşi qəbilə keçib. İşğaldan azad edilmiş şəhər və kəndlərimizin videogörüntüləri ürək ağrıdır. Vəhşi düşmən daş üstə daş qoymayıb, hər yeri xarabazara çevirib. Ağaclar kəsilib, meşələr qırılıb və yandırılıb, torpaqlar yararsız hala salınıb. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı səhranı xatırladır. Ağdam sanki ruhlar şəhəridir, atom bombası heç Xirosimanı da belə dağıtmamışdı.

Ermənistanın müharibə cinayətləri bununla da bitmir. Gəncəyə iki dəfə ballistik raket atıldı, Bərdə kasetli mərmilərlə atəşə tutuldu. Tərtərə, Ağdama, Goranboya atılan mərmilərin sayı-hesabı bilinmir. Yüzədək mülki şəxs - uşaqlar, qadınlar, qocalar erməni faşizminin qurbanı oldu, minlərlə ev, yaşayış binası, infrastruktur obyekti dağıdıldı. Təfərrüata varıb vaxt almaq istəmirəm. Bu cinayətlərin izlərini əks etdirən fotolar, videolar, reportaj və xəbərlər AZƏRTAC-ın saytındakı "Dünya erməni faşizmini görsün" bölməsində yeddi xarici dildə (#русский #English #Deutsche #Français #Español #العربية #中文) cəmləşib, sənədləşib.

Onların faşist simasını bütün dünyanın görməsi vacibdir. Qoy, hamı görsün və bilsin ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Hamı bilsin ki, biz təkcə işğalçı ordunu deyil, bəşəriyyət üçün təhlükə mənbəyi olan erməni faşizmini məhv etmişik. Prezidentin tapşırığı ilə Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin işğaldan azad edilmiş rayonlara səfərləri təşkil olunur, onlar erməni vəhşiliyini öz gözləri ilə görürlər. Törədilən dəhşətli dağıntılar bir-bir qeydə alınacaq, sənədləşdirilərək beynəlxalq məhkəməyə veriləcək. Erməni faşistləri yəqin ki, bu dəfə ədalət divanından yayına bilməyəcəklər.

Düşmən güman edirdi ki, bu dağıntılardan sonra azərbaycanlılar bir də o yerlərə qayıtmayacaq. Səhv etdilər. Azərbaycan xalqı 30 ildir doğma torpaqlarına qovuşmaq arzusu ilə yaşayır, Qarabağla nəfəs alırdı. Prezidentimiz işğaldan azad olunmuş Füzuli və Ağdam şəhərlərinə səfər edərkən Qarabağla bağlı gələcək planlarını açıqladı. Bəyan etdi ki, bütün şəhər və kəndlər baş plan əsasında bərpa olunacaq. Vətəndaşların doğma yurda qayıtması üçün dövlət tərəfindən lazımi kömək göstəriləcək. Artıq Füzulidən Şuşaya yeni yolun çəkilişinə, Suqovuşan və Talış kəndlərinə gedən tarixi yolların bərpasına başlanıb.

İkinci Qarabağ müharibəsi bölgədə yeni reallıq yaradıb. Zaman-zaman başı üstündən tufanlar əsmiş gözəl Qarabağımız böyük ümidlə gələcəyə boylanır. Şuşa, Ağdam məscidində 27 ildən sonra yenə azan səsi eşidilir, "Qarabağ şikəstəsi" Qarabağ torpağında səslənir. O yerlərə 30 ildən sonra həyat qayıdır, o torpaqların yeni dövranı başlayır...

### Bölgədə yeni reallıq və ya epiloq əvəzi

Vətən müharibəsinin uğurlu sonluğu bölgədə qüvvələr nisbətini dəyişdi, yeni reallıq yaratdı. İndi biz tək deyilik. Qardaş Türkiyə artıq yanımızda, siyasi masadadır. Qarabağda atəşkəsə türk əsgəri də nəzarət edəcək. Ankaradan ən yüksək səviyyədə mesajlar gəlməkdə davam edir: biz Azərbaycanın yanında olmağa davam edəcəyik. Bu siyasi-mənəvi dəstək gücümüzə güc qatır, Ermənistanın havadarlarını müdaxilədən çəkindirir.

Azərbaycan və Türkiyə prezidentlərinin bir-birinə qardaş deyə müraciət etməsi, ay-ulduzlu bayraqlarımızın yanaşı dalğalanması dostlarımız üçün fəxarət, bədxahlarımıza göz dağıdır.

Bu gün 30 il davam edən status-kvo da yoxdur. Status məsələsi gündəlikdən çıxıb. Əvəzində Qarabağın dağılmış şəhər və kəndlərinin bərpası planlarının icrası başlayıb.

Mübarizə isə hələ bitməyib. Ermənistanın, onun havadarlarının yeni planlar cızması, fitnə-fəsada əl atması istisna edilmir. Fransa Senatının Qarabağla bağlı məkrli qətnaməsi buna misal ola bilər. Bu, o deməkdir ki, işğaldan azad edilmiş Qarabağın hər yerində olduğu kimi, siyasət meydanında da gözlə görünməyən minalar, sualtı qayalar, aysberqlər var. Bu, o deməkdir ki, mübarizə bu gün də var, sabah da.

Dünyadakı çoxsaylı münaqişələrin və müharibələrin gedişinə nəzər salsaq görərik ki, son nöqtəni güclü tərəf qoyur. Azərbaycan xalqının Qarabağ uğrunda 44 günlük Vətən müharibəsi buna ən yeni nümunədir. Ötən 17 ildə güc topladıq, düşmənin başını dəmir yumruqla vurub əzdik. Otuz il davam edən işğala, ədalətsizliyə 44 gündə son qoyuldu. Gücümüzü təkcə düşmən yox, bütün dünya gördü. Sözsüz ki, qalib Azərbaycan gündən-günə, ildən-ilə daha da güclənəcək. Müdrik Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımızı inamla qələbədən-qələbəyə aparacaq.

***Aslan ASLANOV,***
***AZƏRTAC-ın İdarə Heyətinin sədri,***
***OANA-nın vitse-prezidenti***

## “Arxa cəbhənin qəhrəmanları”

# 10 ölkə, 27 KİV, 73 çıxış...

### Prezident İlham Əliyevin çağırışına qoşularaq informasiya müharibəsinin əsgərinə çevrilən Fərid Şahbazlı indi də Şuşanın Türk Dünyasının Gənclər Paytaxtı kimi tanınması təşəbbüsünün icraçısıdır




**“Vətən müharibəsi başlayandan sonra biz gənclər də informasiya cəbhəsində savaşa çıxdıq. Cənab Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gənclərə çağırış etdiyi kimi, hər birimiz informasiya müharibəsinin əsgərlərinə çevrilərək bu mübarizəyə qoşulduq.**

**Azərbaycanın haqq səsinin, ölkəmizin öz tarixi torpaqlarını bərpa etmək üçün başladığı əməliyyatların diplomatik istiqamətini tanıtmaq, eyni zamanda Ermənistanın işğalçılıq siyasətini ifşa etmək üçün geniş təbliğata başladıq. Çox qürurluyuq ki, bu müharibədə hərbi müstəvidə böyük qələbə qazanmaqla yanaşı, həm də informasiya savaşında erməniləri diz çökdürdük”.**

### 44 günlük qəhrəmanlıq salnaməsində gənclərimizin böyük payı oldu

*Bəli, 44 günlük Vətən müharibəmizi şanlı Qələbə ilə başa çatdırdıq. Torpaqlarımızın 30 illik işğalını bitirdik, ana yurdumuz Qarabağı düşmən tapdağından azad etdik, yüz minlərlə məcburi köçkünümüzün yurd nisgilinə nöqtə qoyduq. Bu tarixi qələbədə hər birimizin zərrə qədər də olsa payı oldu. Bütün Azərbaycan xalqı bir yumruğa dönərək düşmənin başında zərbəyə çevrildi.*

*Bu 44 gündə hamımız Vətənin əsgəri olduq. Amma haqq uğrunda qalxdığımız bu savaşa öndərliyi gənclərimiz edirdi, kimisi qızğın döyüşlərin getdiyi ön cəbhədə sinəsini sipərə döndərərək qanı, canı bahasına Vətəni qorudu, kimisi də arxa cəbhənin qəhrəmanına çevrilərək düşmənin məkrli siyasətinə qarşı gecə-gündüz çarpışdı. Heç şübhəsizdir ki, əl-ələ verən şücaətli gəncliyimizin tarixin qızıl səhifələrinə həkk edilən bu 44 günlük qəhrəmanlıq salnaməsində böyük payı oldu.*

*...O da sentyabrın 27-də Vətənin harayına hay verən gənclərdən, “Arxa cəbhənin qəhrəmanları”ndan oldu.*

*On illiklərdir xaricdə aparılan anti-Azərbaycan təbliğatının, Ermənistanın böyük lobbisinin 44 gün ərzində darmadağın edilməsində aktiv iştirak etdi...*

*Prezident İlham Əliyevin komandanlığı ilə aparılan informasiya savaşının peşəkar əsgərlərindən olan “İslahatçı Gənclər” İctimai Birliyinin sədri Fərid Şahbazlı məkrli erməni yalanının ayaq açıb dünyada yeriməsinə mane olmaq üçün atılan addımlardan söhbət açır...*




### Öncə Vətən, öncə Qarabağ

1991-ci ildə Bakı şəhərində anadan olan Fərid Şahbazlı hələ orta məktəb illərindən etibarən aktiv ictimai fəaliyyətlə məşğul olub. Təhsil aldığı məktəbdə Şagird Parlamentinin sədri, bakalavr təhsili aldığı universitetdə Tələbə Elmi Cəmiyyətinin sədri, magistr təhsili aldığı Türkiyədə 107 ölkədən 4500 xarici tələbənin təhsil aldığı Beynəlxalq Tələbələr Birliyinin rəhbəri kimi fəaliyyət göstərib.

Bakalavr pilləsində Odlar Yurdu Universitetinin Jurnalistika ixtisasını fərqlənmə diplomu ilə və magistr pilləsində isə Türkiyə Respublikasının İstanbul Aydın Universitetinin İctimaiyyətlə əlaqələr ixtisasını bitirən Fərid Şahbazlı rəhbərlik etdiyi “İslahatçı Gənclər” İctimai Birliyinin xətti ilə 2005-2019-cu illərdə 600-dən artıq yerli və xarici layihə və tədbir reallaşdırıb. Gerçəkləşdirdiyi bu tədbirlərin ana xəttini isə Qarabağla bağlı həqiqətlərin dünyada təbliği təşkil edib. Azərbaycanı, Qarabağ həqiqətlərini dünyaya çatdırmaq məqsədi ilə məqalə və müsahibələri dəfələrlə dünyanın çox nüfuzlu televiziyaları, qəzetləri və informasiya portallarında yayımlanan gənc müsahibimiz bu illər ərzində Polşa, Avstriya, Bolqarıstan, Slovakiya, Rusiya Federasiyası, Türkiyə, Ukrayna, Gürcüstan, Monteneqro, Şimali Kiprdə beynəlxalq təşkilatların keçirdiyi beynəlxalq tədbir və görüşlərə qatılaraq Azərbaycanı təmsil edib. 2018-2019-cu illərdə Polşanın paytaxtı Varşavada ATƏT-in 57 ölkədən diplomat və siyasətçilərin iştirak etdiyi İllik Zirvə Toplantısında bir neçə dəfə çıxış edərək, Azərbaycana qarşı qarayaxma kampaniyası aparan müxtəlif yerli və xarici təmsilçilərə cavab verib.

Bundan başqa, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin ifşa edilməsi, azərbaycanlı girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyevə azadlıq tələbi ilə bu ölkənin Varşavadakı səfirliyi önündə etiraz aksiyasına rəhbərlik edib.

Eyni zamanda Leyla xanım Əliyevanın beynəlxalq səviyyəli təşəbbüsünə qoşularaq Türkiyənin müxtəlif şəhərlərində yüksək səviyyədə təşkil edilən, Azərbaycan və Türkiyədən dövlət rəsmilərinin, millət vəkillərinin, nüfuzlu KİV-in qatıldığı “Xocalıya Ədalət Həftəsi”nə təşkilatçılıq edib.

### Ermənistan informasiya savaşında da təxribatlar törədirdi

Vətən müharibəmiz başlayandan sonra isə Azərbaycanın haqq səsinin dünyaya çatdırılması, Ermənistanın işğalçılıq siyasətinin ifşa edilməsi istiqamətində daha aktiv təbliğata başlayan gənc fəalımız bu dövr ərzində dünyanın 10 ölkəsinin mediası ilə əməkdaşlıq həyata keçirib. Xüsusən də qardaş ölkə Türkiyənin televiziyalarında, “CNN Türk”, “Ahaber”, “HaberTürk” başda olmaqla, bütün nüfuzlu kanallarda bir neçə dəfə qonaq olub, həmin verilişlərdə Azərbaycanla bağlı şərhlər verib.

- Müharibə yalnız cəbhədə getmirdi, Ermənistan informasiya savaşında da təxribat törədirdi, sürətli olaraq yalan məlumatlar yayır, dünya ictimaiyyətini çaşdırmağa çalışırdı. Mən də həmin yalanların ifşa edilməsi üçün səhər, axşam, gecə yayımlarına qatılaraq məlumatlar verməyə çalışırdım.

Türkiyə ilə yanaşı, Pakistanın, Əfqanıstanın, Latviyanın, Ukraynanın, Moldovanın, Banqladeşin, Səudiyyə Ərəbistanının və digər 10 ölkənin media orqanları ilə bu müddətdə çox səmərəli əməkdaşlıq qurdum. Bu əməkdaşlıq çərçivəsində Ermənistanın işğalçılıq siyasətini ifşa edən, həmin dövrdə gedən döyüş proseslərindən bəhs edən, Azərbaycan Ordusunun yalnız öz dədə-baba torpaqlarının geri qaytarılmasına hesablanan haqlı mübarizəsini əks etdirən məqalələr dərc etdirdim. Ümumilikdə, 10 xarici ölkədə 27 KİV-də 73 dəfə teleçıxışım oldu, müsahibəm və məqaləm dərc olundu.

### Savaş həm də sosial seqmentdə gedirdi

Bəlli olduğu kimi, bu müharibədə döyüşlər həm də sosial seqmentdə gedirdi. 21-ci əsrin əsas trend və çağırışlarından olan sosial şəbəkələr üzərindən də ermənilər çox ciddi təxribatlar həyata keçirirdilər. “İslahatçı Gənclər” İctimai Birliyinin sədri deyir ki, bu təxribatlar həm Azərbaycanın ölkə olaraq daxilinə, həm də xarici səviyyədə beynəlxalq imicini zədələməyə yönəlmişdi.

- Ölkəmizdə xalqı təfriqəyə salmaq, fikirləri çaşdırmaq məqsədi ilə müxtəlif səs yazıları, videolar yayılırdı, eyni zamanda beynəlxalq səviyyədə də Azərbaycan Ordusunun apardığı əməliyyatları qaralamağa yönəlmiş kampaniyalar gedirdi. Biz də bu müddət ərzində sosial şəbəkələrdə müxtəlif dillərdə - ingilis, rus, fars, hətta erməni dilində böyük bir kampaniya başladaraq əsl həqiqətləri çatdırmağa çalışdıq. Operativ olaraq “Edtor.az” internet televiziyasına əməkdaşlar cəlb etdik və onlar erməni dilində Ermənistan hakimiyyətinin bu gün üzə çıxan və o zaman xalqından gizlətdiyi həqiqətləri Ermənistan ictimaiyyətinə çatdırmaq üçün fəaliyyətə başladılar. Elə bu fəaliyyət çərçivəsində indiyə qədər 50-dən çox erməni dilində material hazırlanıb ki, həmin materiallar sosial şəbəkələrdə erməni seqmentində 100 minə yaxın baxış qazanıb.

Xüsusilə vacib bir məsələni diqqətə çatdırmalıyam ki, uzun illərdir azərbaycanlı sosial şəbəkə iştirakçıları “Twitter”ə inteqrasiya ola bilmirdi, baxmayaraq ki, bütün siyasi proseslər orada cərəyan edir, aktiv mesajlar oradan verilirdi. Amma cənab Ali Baş Komandan cəbhədə olduğu kimi, informasiya savaşının da önündə getdi. Bizə bir yol xəritəsi göstərdi və çox diplomatik bir addımla mesajları “Twitter” üzərindən verməklə qısa müddət ərzində ictimaiyyətin, aktiv gənclərin bura sürətli inteqrasiyasına səbəb oldu. Bu gün Azərbaycan gəncləri 10 illərdir zəif olduğumuz “Twitter”də böyük səhifələrə, böyük gücə malikdir. Biz istənilən məsələni bir saatın içərisində trendə sala bilirik ki, bu zaman da bütün dünyanın həmin məsələdən xəbəri olur.

### Şuşa Türk Dünyası ölkələrinin Gənclər Paytaxtı olsun

İşğaldan azad edilən Şuşa şəhərinin Türk Dünyası ölkələrinin Gənclər Paytaxtı elan edilməsi ilə bağlı beynəlxalq təşəbbüsə başladıqlarını deyən Fərid Şahbazlı deyir ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu 30 ildir ki, işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etdi. İşğaldan azad edilən torpaqlarımız arasında yalnız Azərbaycanın deyil, bütün Türk dünyasının mədəniyyət beşiyi olan qədim Şuşa da var. 30 ildir ki, qədim mədəniyyət beşiyi Şuşanın torpağı, təbiəti kimi tarixi abidələri, mədəni irsi də işğal altında olub. Hazırda işğal edilmiş digər torpaqlarımız kimi, Şuşada da zəruri infrastrukturun, eyni zamanda tarixi və mədəni irsin bərpası üçün dövlətimiz tərəfindən mühüm addımlar atılmağa başlayıb.

Şuşanın işğaldan azad edilməsindən sonra bütün dünyadan olan insanlar, xüsusilə də gənclər bu qədim şəhəri ziyarət etməyə, onun tarixi irsi ilə tanış olmağa böyük maraq göstərirlər. “İslahatçı Gənclər” İctimai Birliyi olaraq Şuşanın və onun timsalında Qarabağın tarixi irsini bütün dünyaya tanıtmaq məqsədi ilə xarici ölkələrdəki tərəfdaş təşkilatlarla birlikdə 2021-ci ildə Şuşanın Türk Dünyası ölkələrinin Gənclər Paytaxtı elan edilməsi üçün beynəlxalq kampaniyaya start vermişik.

Bu təşəbbüsə artıq Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Şimali Kipr Türk respublikaları gənclərindən və digər türkdilli xalqların fəallarından böyük dəstək gəlməkdədir.

Şuşanın Türk Dünyası ölkələrinin Gənclər Paytaxtı kampaniyası çərçivəsində türk dünyasından olan gənclərin bu şəhərə səfərləri reallaşdırılacaq, Şuşanın tarixi və mədəni irsi, düşmənin qədim şəhərimizə qarşı törətdiyi vandallıqlarla bağlı konfranslar və müxtəlif tədbirlər keçiriləcəkdir.

### İlham Əliyev informasiya savaşını da tam zəfərlə bitirdi

Hələ mübarizənin başında olduqlarını söyləyən gənc fəal Fərid Şahbazlı qeyd edir ki, onları qarşıda uzun bir yol, mərhələ gözləyir.

- Əvvəlki illərdə biz bu qədər professional şəkildə informasiya müharibəsi apara bilmirdik. Açığını demək lazımdır ki, indiyə qədər erməni lobbisi ilə bağlı böyük miflər yaradılmışdı. Amma Ali Baş Komandanın rəhbərliyi ilə elə bir şərait yetişdirildi, elə bir beynəlxalq vəziyyət yaradıldı ki, artıq diplomatik müstəvidə də onlar heç bir addım ata bilmədilər və böyük şok keçirdilər.

Müharibə yeni başlayan dövrdə dünyanın bir çox media qurumları açıq-aydın bizə qarşı qərəzli mövqe nümayiş etdirirdilər. Onlara qarşı informasiya blokadasını da verdiyi müsahibələrlə cənab Prezident şəxsən özü yardı. Həmin müsahibələrdə verilən cavablar təkcə o jurnalistlərə yox, bütün dünyaya Azərbaycan xalqının siyasi iradəsini, milli-mənəvi həmrəyliyini göstərən mesajlar idi. İlham Əliyev informasiya savaşını da tam zəfərlə bitirdi.

Biz gənclər də bu siyasətdən nəticə çıxarıb fəaliyyətimizi daha da artırmalı, proseslərə aktiv qoşulmalıyıq. Xüsusilə də xaricdə yaşayan azərbaycanlılar fəal olmalı və orada işimizi diaspor fəaliyyətindən lobbiçiliyə keçirməliyik. İndi cəbhədəki uğurlarımızın diplomatik müstəvidə möhkəmləndirilməsinin məqamıdır.

*Bəli, bu gün ön cəbhədə müharibə bitib, Azərbaycan öz tarixi torpaqlarını qaytarıb, 30 ildir icra olunmayan BMT qətnamələrini yerinə yetirib. Buna baxmayaraq, o da reallıqdır ki, bəzi xarici qüvvələr Azərbaycanın bu haqlı qələbəsini gözdən salmağa çalışır, qondarma rejimi tanımağa yönəlik addımlar atmaq istəyirlər. Bu isə onu göstərir ki, qarşıda bizi hərbi fazadan daha aktiv olan diplomatik müharibə gözləyir.*

*Amma əminik ki, elə həmsöhbət olduğumuz gənc fəal Fərid Şahbazlının timsalında bütün Azərbaycan gəncləri diplomatik savaşın önündə yenə də inamla irəliləyəcək, xalqımızın haqq səsini müxtəlif tribunalardan dünyaya hayqıracaqlar.*

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# Biz qayıdırıq, Laçınım!

Gözün aydın, anam, bacım, gözün aydın, atam, qardaşım, gözün aydın ürəyi nisgilli, könlü yaralı millətim! 28 ilin həsrətinə son qoyub Laçına döndük, doğma yurda qayıtdıq. O müqəddəs torpağına qədəm qoyduq, dizimizin taqəti, gözümüzün nuru oturdu. Ətir qoxuyan təmiz havanı udduq, durnagözlü bulaqlarının suyunu içdik, canımıza qeyri-adi bir rahatlıq doldu, ürəyimiz qürurla döyündü.



Bağışla bizi, Laçınım, sənin 28 il düşmən tapdağında qalmağına dözə bildik. Bu 28 ildə nələr çəkdiyimizi, necə ağır məhrumiyyətlərə tablaşdığımızı bir Allah bilir. Hər il işğal günlərini qeyd edəndə min dəfə ölüb-dirilirdik. Qisas hissi, intiqam istəyi içimizdə ocaq kimi yansa da, xəcalətdən baş qaldırıb bir-birimizin üzünə baxa bilmirdik. Hamımız günahkar idik. Səni qoruya bilməmişdik. Uğrunda şəhid olub qovuşmaq bizə nəsib olmamışdı. Bu da bir alın yazısıydı, Allahın qismətiydi yaşadıq. Yaşadıq və nə xoş ki, bu günü gördük.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik diplomatiyası, müzəffər sərkərdə hünəri, şanlı Azərbaycan əsgərinin qəhrəmanlığı sayəsində Laçın erməni işğalından azad edildi. Dövlət başçısı bu əlamətdar tarixi hadisə, şanlı qələbə münasibətilə xalqa müraciət etmişdir. Müraciətin ilk cümləsində deyilir: “Əziz həmvətənlər, böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq”.

Prezidentin hər cümləsində qürur doğuran, xoş ovqat yaradan müraciəti laçınlıların kompakt yaşadığı Ağcabədi rayonu ərazisindəki Taxta Körpü qəsəbəsində böyük coşqu doğurmuşdur. Burada salınmış, Laçının ayrı-ayrı kəndlərinin adını daşıyan obalarda məcburi köçkün kimi məskunlaşmış əhali Qələbə sevincini paylaşmaq, bir-birilərini təbrik etmək, gözaydınlığı vermək üçün bir araya gəlmişdilər.

Böyük izdihamda dövlətimizin və qardaş Türkiyənin bayraqları əzəmətlə dalğalanırdı. Aksiya iştirakçıları bu parlaq qələbənin baş memarı Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin portretlərini qürurla başları üzərinə qaldırmışdılar. Telli sazdan, qara zurnadan qopan döyüş ruhlu havalar ətrafa yayılırdı. Hər ilin nisgilini Qələbə sevincinin dalğası əlçatmaz uzaqlara aparmışdı.

Laçınlılar 28 il idi ki, belə bir qələbə sevincinin təşnəsiydilər. Meydandakı adamların gözlərindən sonsuz sevinc hissləri yağırdı, üzləri gülürdü. Hərbi geyimli bir gəncin məğrur duruşu, qartal baxışları diqqət çəkir! Yaxınlaşıb tanış oluruq və öyrənirik ki, Vətən müharibəsinin qazisi, Laçın rayon sakini, Abiyyədin Əliyev müqəddəs Qarabağ savaşında böyük igidlik göstərib, düşmənə qan uddurub. Müsahibim qələbə sevincini bizimlə həvəslə bölüşür:

- Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuz şanlı tarix yazdı. Biz Laçına qalib kimi dönürük. Qarabağın azadlığı uğrunda döyüşlərdə qəhrəmancasına həlak olub əbədiyyətə qovuşan şəhidlərimizin müqəddəs ruhları bu gün bir rahatlıq tapır. Qələbə sevincinin işığına yığışan insanların çöhrəsinə diqqətlə baxın. Hamı gülür, sevinir. Sevincdən ağlayanlar da çoxdur. Bizim davamız haqq davası idi. Biz müharibə istəmirdik. Amma torpaqlarımızın işğal altında qalması ilə də barışa bilməzdik. Düşmənlərimizin təhdidlərinə qətiyyətlə cavab verib “Qarabağ Azərbaycandır. Nida işarəsi” - deyən dövlət başçısı bu fikrin döyüş meydanında təsdiqinə müdrikliklə nail oldu. Bu illər ərzində camaatımız çox acılar çəkib. İndi Qələbənin dadını çıxarırıq.

Bu mərasimin iştirakçısına çevrilmək, bütün ağrı-acıları unudub özünü dünyanın xoşbəxti sayan insanların arasında olmaq qeyri-adi bir könül rahatlığıdır. Ömrün ixtiyar çağını yaşayan Ağayar İsmayılov, Şərqiyyə Vəliyeva, Ağaxan Nəzərov, Osman Həsənov, Əmiraslan Məmmədov və başqaları taleyin onları bu cür xoş anlarla qovuşdurduğuna görə çox məmnundurlar.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

# Etirazlar Ermənistanı daha dərin xaosa aparır

*Əvvəli 1-ci səh.*

### “Nikol, get!”, “Nikol- xain!”









Etirazçılar son aksiyalar zamanı Ermənistan paytaxtının mərkəzi prospektini bağlamağa çalışıblar, amma polis onları sıxışdırıb, həbslər aparıb. Mitinq iştirakçıları Yerevanın mərkəzində zibil qutularından barrikadalar qurublar. Onlar Paşinyan istefa verməyənədək geri çəkilməyəcəklərini bildiriblər. Bir qrup nümayişçi isə Yerevandakı Opera və Balet Teatrının binasının yaxınlığında aksiya keçirib və nəticədə bu hissədə hərəkət tamamilə iflic olub. Onlar “Nikol, get!”, “Nikol-xain!” şüarları səsləndiriblər.

Paytaxtın Maştosa prospekti ilə Tumanyan küçəsinin kəsişməsində Ermənistanın baş naziri Nikol Paşinyanın istefasını tələb edən fəallar trolleybusu saxlayıblar. Onlar trolleybusa daxil olaraq pirotexniki vasitələr yandırıblar.

Daha bir qrup vətəndaş polis binasının qarşısına toplaşaraq aksiya keçirib. Onlar həmyerliləri, 26 yaşlı Samvel Qriqoryanın polis bölməsinə aparılaraq döyülməsinə qarşı çıxıblar. Zərərçəkənin yaxınları deyirlər ki, paytaxtda bu, adi haldır və güc strukturlarının özbaşınalıqları pik həddə çatıb.

Əsgər valideynlərinin də etirazları davam edir. Onlar hökumət binası qarşısında yenidən etiraz aksiyasına başlayıblar. Valideynlər övladlarının Qarabağdan Ermənistana qaytarılmasını tələb edirlər. Onlardan Asmik Qriqoryan bildirib ki, Cəbrayıl və Hadrutdakı döyüşlərdə iştirak edənlər yanvar ayında tərxis olunmalıdır: “Mənim övladım bunların arasındadır. Biz uşaqlarımızın bir ay tez tərxis olunmasını istəyirik. Çünki indi məktəblərdə yerdə yatırlar”.

### Hökumətdən arbitraj məhkəməsinə şikayət olunacaq

Siyasi gərginlik fonunda Ermənistanda iqtisadi problemlər də dərinləşir. Hətta iş o yerə gəlib çatıb ki, ölkədə xarici kapitalla fəaliyyət göstərən şirkətlər də hökumətin yürütdüyü vergi-iqtisadi siyasətindən ciddi şəkildə narazılıq edirlər. “İravunk” qəzeti etibarlı mənbələrinə istinadən yazır ki, xarici kapitalla işləyən şirkətlər Ermənistan hökumətinə qarşı güclərini birləşdirmək qərarına gəliblər. Bu məqsədlə onların nümayəndələri vaxtaşırı görüşərək mövcud vəziyyəti, eləcə də hakimiyyətlə münasibətlərini və gələcək addımlarını müzakirə edirlər.

Mənbələrdən verilən məlumata görə, Ermənistan hökumətinə qarşı “ittifaq” yaradan həmin şirkətlərin sırasına iri vergi ödəyicisi olan müəssisələr və rabitə operatorları daxildir: “Problemlərinin həll olunması əvəzinə daha da böyüdüyünü görən bu şirkətlər Ermənistan hökumətini arbitraj məhkəməsinə verə bilərlər. Artıq “Lidian Ermənistan” şirkəti 3 aydan sonra məhkəməyə şikayət edəcəyi barədə xəbərdarlıq edib və başqaları isə vəziyyətin sonrakı inkişafının necə olacağını gözləyirlər. Bu şirkətlərin arbitraj yoluna baş vurması Ermənistan dövləti üçün olduqca təhlükəlidir. Təkcə ona görə yox ki, hökumət iri məbləğdə cərimə ödəməli olacaq. Həm də ona görə ki, bu, əcnəbi biznesmenlər üçün Ermənistanın investisiya cəlbediciliyinin daha da azalmasına və perspektivdə xarici investisiyalardan tamamilə məhrum olmasına gətirib çıxara bilər”.

### Baş nazirin nüfuzu kəskin aşağı düşüb

Bu günlərdə keçirilən rəy sorğusu Paşinyanın nüfuzunun daha sürətlə aşağı düşdüyünü növbəti dəfə göstərib. “İravunk” qəzeti Ermənistanın Milli Təhlükəsizlik Nazirliyindəki mənbəyə istinadla sorğunun nəticələrini açıqlayıb. Bildirilib ki, hazırda onun reytinqi 6-12 faizdir. Bu da hökumət başçısı üçün heç də ürəkaçan göstərici deyil.

Qəzet yazır ki, Paşinyanın reytinqinin düşməsini onun “Facebook” hesabından da müşahidə etmək mümkündür: “İqtidar mütəmadi olaraq daxili istifadə üçün gizli sorğular keçirir. Sosial şəbəkələrdə vətəndaşlar arasında keçirilmiş növbəti rəy sorğusunun nəticələrinə əsasən, Paşinyanın reytinqi sürətlə aşağı düşüb. Ancaq əldə edilən məlumata əsasən, bu rəqəm də reallıqdan tamamilə çox uzaqdır. Təxminən bir ay əvvəl gizli rəsmi kanallarla aparılan sorğunun nəticələrinə görə, Paşinyanın reytinqi heç 3 faiz belə deyil”.

### Bəzi hakimlər Paşinyanla görüşməkdən imtina ediblər

Bu arada Ermənistanın baş naziri Nikol Paşinyan ölkənin Ali Məhkəmə Şurasının üzvləri ilə görüşüb. İclas iştirakçıları jurnalistlərə verdikləri müsahibələrdə görüşdən əvvəl hansı məsələlərin müzakirə edilməli olduğunu bilmədiklərini deyiblər. Bir sıra hakimlər isə bu görüşdə iştirak etməkdən imtina ediblər. Bunlar Ermənistan Ali Məhkəmə Şurasının sədri Ruben Vardazaryan və Şuranın üç üzvü - Stepan Mikaelyan, Armen Aykyan və Mesrop Makyandır. Onlar baş nazirlə baş prokurorun, İstintaq Komitəsi sədrinin, Xüsusi İstintaq Xidməti rəhbərinin də iştirak etdiyi belə görüşün Ali Məhkəmə Şurasının Konstitusiya statusuna zidd və qanunsuz olduğunu qeyd ediblər.

Ermənistanın Vatikandakı keçmiş səfiri, sabiq prezident Serj Sarkisyanın kürəkəni Mikael Minasyan Nikol Paşinyanı və erməni xalqını Qarabağda ölən minlərlə əsgərə qarşı hörmətsizlikdə ittiham edib. Keçmiş diplomat bütün dünyanın erməni xalqının necə aciz duruma düşdüyünü müşahidə etməsindən də söz açıb. Bildirib ki, dünya anladı ki, biz döyülə, öldürülə bilərik və bir erməni bunu tez unuda, heç bir şey olmamış kimi davranaraq yaşamağa davam edə bilər.

Minasyan deyib ki, Paşinyanın müharibədəki itkilərlə bağlı laqeydliyi başadüşüləndir, çünki ölüm onun üçün faciə deyil: “Paşinyan hər şeyin tez unudulmasını istəyir. Bəs ölkə? Ölkədə “Cümə” endirimləri marafonu var, restoranlar və mağazalar işləyir. Bayrağımız heç bir yerdə endirilməyib. Ermənistanın heç bir səfirliyində yas kitabı açılmayıb. Bilirsiniz niyə? Yas tutmaq üçün əvvəlcə nə baş verdiyini anlamaq lazımdır. Baş nazir bunu anlamır. Çünki bu, onun üçün siyasi mübarizədir. O, dəlidir və faciəmizi başa düşə bilməz. Bəs ölkədə hər kəs Nikoldurmu? Hələ heç kim faciənin dərinliyini tam anlamayıb?”

Sarkisyanın kürəkəni onu da vurğulayıb ki, xalqın bu gün yas tutmamasının bir səbəbi reallığı qəbul etmək istəməməsidir. İnsanlar reallıqdan qaçırlar. Baş verənləri anlamamağa, eyni ətalətlə yaşamağa, eyni tələyə düşməyə çalışırlar.

Hərbi cinayətkar və sabiq prezident Sarkisyanı da, onun kürəkənini də, sələflərinin yolu ilə gedən Paşinyanı da məğlub edən, aciz duruma salan, onları bir-biri ilə sonugörünməz çəkişməyə düçar edən Ermənistanın işğalçı siyasəti oldu. Azərbaycan Ermənistanı bu müharibədə elə bir vəziyyətə saldı ki, onun siyasi, iqtisadi və sosial yaralarının sağalması qeyri-mümkündür.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# O gün gəldi



Əvvəli 1-ci səh.

## Qələbə ruhu

Bu zəfəri bayram edən, bir-birinə gözaydınlığı verən, küçələrini, evlərini, iş yerlərini, avtomobillərini üçrəngli bayraqlarımızla bəzəyən insanların sevinci, qüruru, - bütün ölkədəki bayram ovqatı mühüm bir tarixi hadisənin canlı şahidləri olduğumuz bu günlər möhtəşəm tarixi dövr olduğu üçün bizi xoşbəxt edir.

Bu, taleyin bizə ən gözəl lütfüdür.

Hərdən adama elə gəlir ki, aradan keçən bu 28 illik acıları, həsrəti sanki biz heç yaşamamışıq. Sanki bu gün düşməndən təmizlənən doğma yurdlarımızdan heç ayrı düşməmişikmiş. Elə bil, o nisgil, qubar heç bizimki deyilmiş. Bütün bu baş verənlər 28 ilədək sürən qorxulu bir röya imiş.

Qələbə ruhu da elə budur, əslində.

O ruh nisgilləri ovudur, yaralara məlhəm qoyur, keçmişin dərslərindən nəticə çıxararaq gələcəyə ümidlə yönəlməyə, qələbəni qoruyaraq tərəqqi arzuları ilə onu həqiqətə çevirməyə, möhkəmləndirməyə, Qələbədən yeni başlanğıclara doğru mətin addımlar atmağa sövq edir, ilham verir.

Əslində, bu gün azadlığa çıxan torpaqlarımızdan guya heç zaman ayrı düşməməyimizlə bağlı təəssüratlarımızda müəyyən həqiqət payı da var. Biz doğma yurdlardan didərgin düşəndə o torpaqları da beynimizdə, qəlbimizdə, xatirələrimizdə özümüzlə götürüb gəlmişik. Onlar hər birimiz üçün doğma ocaqlarda, hər anımızda, hər günümüzdə yaşayıblar. Bizimlə birgə olublar. Unutmamışıq və unudulmağa qoymamışıq. Ona görə bu gün o torpaqlara qayıdışımız həm möcüzə kimi görünür, həm də inanılmaz həqiqət kimi! Çünki hətta ən ümidsiz vaxtlarımızda belə, bir gün bunun həqiqətə çevriləcəyinə hər birimiz bütün varlığımızla inanırmışıq.

Və o gün gəldi...

Əvvəlcə bir sıra cəbhə ətrafı kəndlərimiz, ardınca o müqəddəs Suqovuşan, sonra Cəbrayıl rayonu, Hadrut qəsəbəsi, Füzuli, Zəngilan, Qubadlı, Ağdam, Kəlbəcər, Laçın müzəffər Ordumuzun qüdrəti ilə işğaldan azad edildi. Dövlətçilik tariximizin Dövlət Bayrağı Günü, Milli Dirçəliş Günü kimi şərəf salnamələrinə bələdçilik edən noyabr ayı yeni qələbələrlə həyatımıza yeni əlamətdar tarixi günlər gətirdi. Noyabrın 8-də Azərbaycanın dillərdə dastan olmuş tarixi keçmişinin canlı şahidi, Ağa Məhəmməd Şah Qacarları məğlub edən, xalqımızın unikal mədəniyyətinin ülviyyət məbədi, milli musiqisinin beşiyi, gülüstanlar diyarı əfsanəvi xarıbülbülün doğma vətəni Şuşa 28 illik işğaldan sonra igidlərimizin sücaəti sayəsində azadlığa çıxdı.

Azərbaycan övladları müqəddəs şəhərimiz olan Şuşanı orta əsrlərimizin cəngavərləri kimi, demək olar ki, qol gücünə, ağır silahlardan istifadənin mümkün olmadığı sıldırım qayalıqlar şəraitində, əsl alpinistlər kimi qayalara dırmanaraq, düşmənlə əlbəyaxa mübarizədə azad etdilər.

Bu, dünyanın hərb tarixində əbəqi qalacaq və igidlik, qorxmazlıq, Vətənə sevgi nümunəsi kimi daim xatırlanacaq bir qələbədir. Dünya mediası Azərbaycan əsgər və zabitlərinin qəhrəmanlıqlarından böyük heyrətlə söz açır. Əsrlərlə milli ruhumuzu böyütmüş, ucalarda saxlamış Babək, Cavanşir, Koroğlu artıq bizim üçün uzaq bir tarix, əfsanə deyil. Onların nəsillərinin davamçıları olan Azərbaycan igidləri bu qəhrəmanlıqları XXI əsrdə bir daha bütün dünyaya bəyan etdilər.

## Ermənistan kapitulyasiyaya məcbur edildi

Şuşanın fəthindən sonra artıq yolun sonuna gəldiyini, ağır məğlubiyyətdən qaçmağın mümkünsüzlüyünü görən Ermənistan noyabrın 10-da faktiki kapitulyasiya aktına imza atmaq məcburiyyətində qaldı. Beləliklə, Azərbaycan 44 günlük Vətən müharibəsində ordumuzun qələbəsini rəsmiləşdirmiş oldu.

Noyabrın 10-da Azərbaycan və Rusiya prezidentlərinin, habelə Ermənistanın baş nazirinin imzaladığı üçtərəfli bəyanat işğalçının kapitulyasiyasının hüquqi-rəsmi təsdiqinə çevrildi. Azərbaycan düşmənin burnunu elə ovdu, ona elə bir tarixi qınaq və utanc yaşatdı ki, (əgər bu hisslər onda varsa...) işğalçı Ermənistanın rəhbərliyi sənədi göz qarşısında, kameralar önündə imzalamağa özündə təpər tapa bilmədi. Düşmənin üzə çıxası halı qalmamışdı.

Bu bəyanatla Azərbaycan Ermənistanı ölkəmizin ərazi bütövlüyü ilə razılaşmağa faktiki məcbur etdi. Bəyanatın şərtlərinə əsasən, noyabrın 20-də Ağdam rayonu tamamilə Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Ağdam şəhərinin mərkəzində Dövlət bayrağımız ucaldı. Dövlət himnimiz səsləndi. Bunun ardınca düşmən əsgərləri 25 noyabrda Kəlbəcərdən, 1 dekabrda isə Laçından çıxarıldı. Azərbaycan bayrağı bu qədim yaşayış məskənlərində də dalğalandı. Beləliklə, 27 illik işğaldan sonra Ağdam, Kəlbəcər, Laçın öz azadlığına, öz doğmalarına qovuşdu. Azərbaycan dövləti bir güllə belə atmadan, bir şəhid vermədən, bir əsgərimizin sağlamlığına xələl gəlmədən Ağdam, Kəlbəcər, Laçın kimi strateji ərazilər düşməndən təmizlədi. Ermənistanın kapitulyasiyası düşmən üzərindəki şanlı hərbi qələbəmizin nəticəsidir. Azərbaycan dövlətinin döyüş meydanındakı bu qələbəsi həm də siyasi qələbəmizin rəhnidir.

## Bir Qələbənin üç müəllifi

Həmişə dünyanı sərgərdan dolaşan, özgələrinin torpaqlarına əxz edilməli obyekt kimi baxıb özününküləşdirməyə çalışan, tarixboyu öz torpaqları, öz yurdları, öz ocaqları olmadığından yurd düşüncəsindən də məhrum olan ermənilər Azərbaycan insanının doğma yurda nə qədər qırılmaz tellərlə bağlılığını unutdular. O torpaqların Azərbaycan xalqının ürəyində əbədi yaşadığını duya bilmədilər, anlamadılar. Fərqində olmadılar ki, bizim bütün məcburi köçkünlərimiz bu illər ərzində yalnız bir ülvi arzu ilə yaşayıblar: öz doğma torpaqlarına qayıtmaq, illərlə arzusunda olduqları həyata qovuşmaq.

Azərbaycan Prezidenti uzaqgörən siyasəti, Ordumuzun gücü ilə bu intizara son qoydu.

Vətən savaşında qazandığımız Qələbənin üç müəllifi var: Azərbaycan dövlətinin bu illər ərzində formalaşdırdığı güclü ordu, bu orduda döyüşən igidlərimizi yetişdirmiş və milli həmrəyliyi ilə onlara mənəvi ruh vermiş xalqımız və yenilməz Ordumuzun yenilməz sərkərdəsi, xalqımızın comərd oğlu milli Lideri, bu qüdrətli birliyi bir araya gətirərək Azərbaycanın tarixi qələbəsinə imza atan Silahlı Qüvvələrimizin yenilməz sərkərdəsi, Ali Baş Komandanı cənab İlham Əliyev.

## Qurtuluşdan başlanan zəfər

Bu Qələbə ötən əsrin 90-cı illərinin ortalarından Azərbaycanın böyük inkişaf yolu keçdiyini göstərdi. Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidi ilə ölkə rəhbərliyinə qayıdıb xilaskarlıq missiyasını yerinə yetirməsinin dövlətimizə böyük tarixi şans qazandırdığını bir daha isbat etdi. Tutduğumuz yolun düzgünlüyünü, Ulu Öndərin gələcəyə müdrik baxışlarını, ölkənin taleyini cənab İlham Əliyevin şəxsində nə qədər güvənli əllərə əmanət etməsini sübuta yetirdi. Xalqın seçiminin bir daha doğruluğunu təsdiq etdi.

Müstəqilliyimizin ilk illərində Ermənistanın öz havadarlarının köməyi ilə torpaqlarımızı işğal etməsi Azərbaycanın yaşadığı siyasi-iqtisadi böhranın, hakimiyyət uğrunda mübarizənin, ölkə rəhbərliyinin siyasətdə təsadüfi, naşı insanların əlinə düşməsinin nəticəsi idi.

Azərbaycan övladları o zaman da indiki kimi qəhrəmanlıqla vuruşurdular, fədakarlıq göstərirdilər. Birinci Qarabağ müharibəsində şəhid olmuş ərənlərimizin məzarları, o döyüşlərdə böyük rəşadət göstərmiş igidlərimizin qəhrəmanlıq hekayələri bunun sübutudur. Amma əsas fakt budur ki, onda indiki güclü, dönməz vahid rəhbərlik yox idi. Nizami ordu qurulmamışdı. Ayrı-ayrı siyasi qruplar cəbhə bölgəsində düşmənlə çarpışan, canını Azərbaycan yolunda fəda edən vətənpərvər gənclərimizin taleyi ilə oynayırdılar. Rayonlarımız, şəhərlərimiz xəyanətlə düşmənə təslim edilirdi. Hakimiyyət uğrunda bir-biri ilə didişən, ölkəni vətəndaş müharibəsi həddinə çatdıran siyasi qrupların bədnam əməlləri cəmiyyətdə gələcəyə böyük inamsızlıq yaratmışdı. Qonşularla pozulan münasibətlər, nəticəsi düşünülməmiş, düzgün proqnozlaşdırılmamış addımlar, ağılsız bəyanatlar, böyük güclərin mənafelərinə zidd davranışlar Azərbaycanı xarici qüvvələrin təxribat meydanına çevirmişdi. Ölkə parçalanma təhlükəsi ilə üz-üzə qalmışdı.

Belə çıxılmaz anda xalq Ulu Öndər Heydər Əliyevi hakimiyyət rəhbərliyinə dəvət etdi, onun ətrafında sıx birləşərək öz taleyinə sahib çıxdı. Azərbaycanı bugünkü möhtəşəm qələbəsinə gətirən yol da əslində Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdış günündən başladı.

1994-cü ildə cəbhə bölgəsində atəşkəsin əldə olunmasının və Azərbaycanın bütün imkanları demokratik, hüquqi dövlət quruculuğu proseslərinə, diplomatik əlaqələrin gücləndirilməsinə, sosial-iqtisadi inkişafa, o cümlədən, ordu quruculuğuna yönəlməsinin nə qədər doğru yol olduğunu illər sonra qazandığımız bugünkü şanlı qələbə sübuta yetirdi.

## Hədər olmayan zəhmət

Böyük dövlətçilik təcrübəsinə malik Heydər Əliyev yaxşı bilirdi ki, ölkənin həqiqi müstəqilliyini, sosial-iqtisadi inkişafını, vətəndaşların rifahını təmin etmədən xaricdə güclü havadarları olan düşmənlə uzunmüddətli müharibə aparmaq itkidən başqa bir şey deyil. Azərbaycan o zaman atəşkəslə razılaşmadan mövqe döyüşlərini illərlə davam etdirə bilərdi. Amma bu döyüşlər bizə yeni-yeni insan faciələrindən, dağıntılardan, əsas inkişaf məqsədlərindən uzaq düşməkdən və ölkədə yeni təxribat cəhdlərindən başqa ciddi bir nəticə qazandırmayacaqdı. Müstəqilliyini yenicə əldə edən, gələcəyinə doğru ilk kövrək addımlarını atan ölkə belə taleyüklü məqamda yeni yanlışlara yol verə bilməzdi. Ən düzgün istiqaməti müəyyənləşdirib gələcəyə doğru addım-addım irəliləmək və ən ağrılı problemimiz olan bu münaqişənin həlli üçün uyğun zamanın yetişməsini gözləmək lazım gəlirdi.

Beləliklə, Ulu Öndər hər zaman olduğu kimi, yenə də yolun ən doğrusunu seçdi. 1994-cü ildə cəbhə bölgəsində atəşkəsin əldə olunmasından az sonra imzalanan "Əsrin müqavilə"si, ölkəmizdə gələcək sosial-iqtisadi inkişafın möhkəm təməlini qoydu. 1995-ci ildə özünün ilk Konstitusiyasını qəbul edən Azərbaycan demokratik hüquqi dövlət quruculuğunun əsaslarını formalaşdırdı. Qarşıya qoyduğu hədəflərə doğru əzmlə irəliləməyə başladı. Cəmiyyətimizdə milli vəhdət əldə olundu. İnsan hüquq və azadlıqları, vətəndaş cəmiyyəti formalaşdı. Söz və mətbuat azadlığına təminat verildi. Azərbaycanın getdikcə genişlənən sosial-iqtisadi imkanları vətəndaşların rifahını yüksəltdi. İnsanlarımızda müstəqil dövlətimizə inam yarandı. Müstəqilliyin nə qədər böyük nemət olduğunu hər kəs dərk etdi.

Bu müddət ərzində Heydər Əliyev vətəndaşlarımızda gələcəyə inamı gücləndirdi. İnsanları dövlətçilik dəyərləri ətrafında bir araya gətirdi. Ölkədə nizami ordu quruculuğu sistemli şəkildə həyata keçirildi. Müasir hərb elminin incəliklərinə bələd, Azərbaycana ruhən, qəlbən bağlı yeni hərbçi nəsil, peşəkar zabitlərimiz yetişdi.

Heydər Əliyev ordunun, ümumilikdə güc strukturlarının siyasi proseslərdən kənarda fəaliyyətini, hər hansı qrupun təsirinə düşmədən öz dövləti missiyasını yerinə yetirməsini təmin etdi.

Ulu Öndər Azərbaycan gəncliyinə sahib çıxdı. Onları ayrı-ayrı firqələrin, təxribatçı qrupların ziyanlı təsirlərindən qorudu. Dövlətin yeni nəslə diqqət və qayğısı, davamlı dəstəyi, bu sahədə apardığı məqsədyönlü işlə gənc nəslin vətənpərvər ruhda yetişməsinə, dövlətimizin gələcəyinə görə ictimai məsuliyyət duyğusunun formalaşmasına şərait yaratdı.

Müstəqil dövlətimizin yaxın və uzaq qonşularla, beynəlxalq qurumlarla inkişaf edən əlaqələri, bir sıra təşkilatların fəaliyyətində yaxından iştirakı, öz qapılarını dünyaya açması səsimizin-sözümüzün daha geniş miqyasda eşidilməsinə imkan yaratdı.

## Tarixin möhtəşəm səhifəsi

Ermənistan 90-cı illərin əvvəllərində torpaqlarımızı işğal edəndə biz demək olar ki, təklənmiş vəziyyətdə idik. Müstəqilliyini yenicə qazanmış bu keçmiş sovet respublikasını dünyada çox az adam tanıyırdı. Ermənistanın ölkəmizə qarşı ərazi iddiaları əksər hallarda düzgün anlaşılmırdı. Biz bütün dünyada çox böyük lobbiyə malik olan, xaricdən güclü dəstək alan məkrli bir düşmənlə qeyri-bərabər güclə mübarizə aparırdıq. Ermənistanın xaricdəki adamları Azərbaycana qarşı sistemli təbliğat işi qurmuşdular. Böyük güc mərkəzlərindəki həlledici adamları müxtəlif vasitələrlə ələ almağı bacarmışdılar. Mahiyyətləri başdan-başa saxtakarlıqdan ibarət olan ermənilər bütün dünyanı öz yalanlarına inandıra bilmişdilər.

Ulu Öndər Heydər Əliyevin o illərdə regionun xəritəsi ilə iştirak etdiyi beynəlxalq toplantıları, saatlarla xəritə önündə verdiyi izahları, bu münaqişədə kimin haqlı, kimin haqsız olduğunu sübuta yetirməkdən ötrü çəkdiyi zəhməti heç birimiz unutmamışıq. O toplantılardan çəkilmiş fotolar, videokadrlar uzaq olmayan tariximizdir. Heydər Əliyev bütün bu əziyyətlərə qatlaşarkən işğal altındakı rayonlarımızın üç-beş günün içində geri qaytarılmayacağının fərqində idi. Amma çox gözəl bilirdi ki, Azərbaycanın əvvəl-axır öz ərazi bütövlüyünü bərpa etməsi həm də bütün bu işlərdən keçir. Ardıcıl şəkildə diplomatik iş, münaqişənin həllinə göstərilən səylər, aparılan danışıqlar da ordu quruculuğu qədər mühüm önəm daşıyır. Ulu Öndərin böyüklüyü və ən müdrik addımı həm də bunda idi ki, bütün bu işləri ondan sonra daha böyük əzmlə, qətiyyət və inamla davam etdirə biləcək böyük dühalı siyasi bir şəxsiyyət yetişdirə bilmişdi.

Şuşa işğaldan azad edildiyi gün Ali Baş Komandan cənab İlham Əliyevin Birinci vitse-prezident xanım Mehriban Əliyeva ilə bu sevinci Şəhidlər xiyabanında xalqımıza çatdırmazdan əvvəl Ulu Öndərin məzarını ziyarəti, belə bir çox dəyərli müjdə ilə bu böyük dövlət adamının ruhunu şad etməsi tariximizin parlaq bir səhifəsi idi. Heydər Əliyevin nigaran ruhu illərlə çəkilmiş əziyyətlərin nurlu, uğurlu nəticəsinə şahid olurdu. Yerinə yetirilən ən böyük vəsiyyətinin həyata keçdiyini hamı üçün əziz ruhu hiss edirdi. Həmin gün, həmin o anlarda milli dövlətçilik tariximizin möhtəşəm bir səhifəsi yazılırdı.

## Dostumuzu-düşmənimizi yenidən tanıdıq

Dövlət üçün ən mühüm olan dövlətçilik dəyərlərinin, bu barədə ən böyük həqiqətlərin, ənənələrin nəsillərdən-nəsillərə ötürülməsidir. Ulu Öndərin sona çatdıra bilmədiyi amalların onun ləyaqətli varisi tərəfindən tamamlanmasıdır. Və yeni dövlətçilik hədəfləri müəyyənləşdirilərək ona doğru ardıcıl addımların atılmasıdır. İlham Əliyevin yenilməz sərkərdəliyi ilə qazandığımız parlaq zəfər, böyük şəxsiyyət Heydər Əliyevin yarımçıq qalmış arzularının yerinə yetirilməsi Azərbaycanın necə ali məqsədli, dönməz, ardıcıl milli inkişaf yolu ilə irəlilədiyini bəyan edir.

Biz dünyanın heyrətlə izlədiyi bu qələbəni Ordumuzun qüdrəti ilə yanaşı, həm də diplomatiyamızın, Azərbaycan Prezidentinin həyata keçirdiyi nadir dövləti ağlı ilə fəth etdiyi xarici siyasət kursunun unikal uğurları sayəsində əldə edə bildik. Hərbi əməliyyatların ilk günlərindən Azərbaycana təzyiq göstərmək, Ermənistanın ədalətsiz mövqeyini müdafiə etmək istəyənlər yenə fəallaşdılar. Amma onlar bu dəfə qarşılarında ötən əsrin 90-cı illərinin Azərbaycanını deyil, tamam başqa bir zirehli Azərbaycanı gördülər. Prezident İlham Əliyevin polad qətiyyətini duydular. Xalqın milli vəhdətindən, öz Liderinə dəstəyindən, ən əsası isə haqqın-ədalətin məhz bizim tərəfimizdə olması faktından güc alan Azərbaycan Prezidentini haqq mövqeyindən döndərməyin mümkünsüzlüyünü nəhayət ki, anladılar. Haqqa deyil, nahaqqa dəstək vermələri ilə özləri özlərini ifşa etdilər. Münaqişənin həlli məqsədilə yaradılmış ATƏT-in Minsk qrupunun 3 həmsədr ölkəsindən biri kimi hər iki münaqişə tərəfinə bərabər münasibət göstərən, Fransanın nümayiş etdirdiyi biabırçı mövqe, Ermənistana verdiyi açıq dəstək, Azərbaycana qərəzli münasibəti Avropa dəyərlərinin gözdən salındığını göstərdi. Eyni qərəzi bölüşən başqa az sayda bir neçə ölkə, o cümlədən Niderland da ədalətsizliyin yanında olmaqla bədnam bir yol seçdiklərini nümayiş etdirdilər. Bu, ədalətin, haqqın, reallığın inkişafı deyil, tənəzzül yoludur. Vaxtilə o ölkələrdən başlanmış intibahın artıq tənəzzülə çevrilməsinin təsdiqidir. Belə bir hal həmin ölkələrin cəmiyyətlərinə normal bir gələcək vəd etmir.

Azərbaycan xalqının səfərbərliyi, Azərbaycan Prezidentinin siyasətinə sarsılmaz inam bəsləyərək heyrətamiz birlik nümayiş etdirməsi faktoru bu qələbəni təmin edən inkaredilməz həqiqətlərdən biridir.

Azərbaycanın dünyada mütərəqqi bir ölkə kimi tanınmasında xüsusilə ölkəmizin mədəniyyət diplomatiyasının uğurlarında, cəmiyyətimizdə milli vəhdətin daha da möhkəmlənməsində böyük əməyi, səyi və zəhməti olan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qayğıkeş ömür-gün yoldaşı, etibarlı məsləkdaşı, Azərbaycanın Birinci vitse-prezidenti çox hörmətli Mehriban xanım Əliyevanın xalqımızın düşmən üzərində qələbə qazanması naminə uzun illər həyata keçirdiyi vətənpərvər, millətsevər fəaliyyət olduqca təqdirəlayiqdir.

Apardığımız haqq davası, qazandığımız qələbə dostumuzu-düşmənimizi bizə yenidən tanıtdı. Bu Qələbəmizdə payı olan, qardaş köməyini heç zaman bizdən əsirgəməyən əziz, doğma, munis Türkiyəyə xüsusilə daimi minnətdarlıq borcumuz var. Azərbaycanın haqq işinə mənəvi dəstək verən baqşa türkdilli dövlətlər, islam dünyasından Pakistan, Əfqanıstan, İsrail Dövləti, Ukrayna Respublikası və digər ölkələr də bu günlərdə xalqımızın yüksək sevgi və rəğbətini qazandı. Regionda böyük təsir imkanlarına malik Rusiyanın baş verənlərə münasibəti, Azərbaycanın ərazi bütövlüyü prinsipləri çərçivəsində sülhyaratma prosesində iştirakı da ədalətli bir mövqe olaraq duruma adekvat oldu.

## Yolumuz ədalət yoludur

Həm sosial-iqtisadi inkişaf nəticəsində əldə etdiyimiz imkanlar, həm ordu quruculuğu istiqamətindəki nailiyyətlərimiz, həm də diplomatik uğurlarımız bizə imkan verdi ki, nəinki Ermənistanın 30 illik miflərini, dünyaya inandırdıqları uydurmaları, eləcə də özlərini cəmi 44 günün içində darmadağın edək. Onların ordusunu sıradan çıxaraq. Dünyaya yaydıqları yalanların puçluğunu göstərək. 2020-ci ilin cəmi 44 günündə Azərbaycan Dövləti, onun qətiyyətli, comərd Prezidenti təkcə torpaqlarımızın işğaldan azad olunmasına nail olmadı, düşmənin siyasi və hərbi rəhbərliyinə diz çökdürdü. Yaranmaqlarına peşman etdi. Öz düşünülmüş siyasəti ilə məkrli ermənilərin tam 200 ildə xalqımıza yaşatdıqları iztirabların, namərd hücumların, soyqırımların, milləti lərzəyə salan məşəqqətlərin, başsız qalmış ailələrin, yaşanan dəhşətli fəryadların, harayı kəsilməyən nalələrin, tökülən qanların, kəsilən başların intiqamını, qisasını aldı!

Həm də siyasi, iqtisadi, bəşəri üstünlüyün, qanunlara hörmətin, dünya birliyi ilə əlaqələrin, münasibətlərin sivil formada qorunub saxlanması, bütün dünyanı öz həqiqətlərinə inandırması yolu ilə.

Meydanda düşmənin rəzil, qorxaq, Vətən təəssübündən uzaq ordusunu məhv etməklə;
Yalanlar üstündə qurulmuş siyasətinin əsil mahiyyətini açıb dünyaya göstərməklə;
Bəşəri duyğulardan məhrum ermənilərin leş qoxusu verən çürümüş ruhunu bütün dünyada ifşa etməklə;
Ermənilərin irticaçı mövqeyini biabır edən tarixi həqiqətləri dünyaya yaymaqla;
Bu proses təsdiqlədi ki, ədalətin heç bir alternativi ola bilməz!
O gec-tez zəfər qazanacaq!

## Bu gün də, gələcək də bizimdir

Hər zaman belə bir düşüncədə olmuşam ki, dünya reallıqlar dünyasıdır. Beynəlxalq ictimaiyyət hansısa məsələ barədə rəy formalaşdırarkən reallıqlara istinad edir. Regiondakı reallıqlar isə göz önündədir. Prezident İlham Əliyevin ötən onilliklərdə həyata keçirdiyi siyasət Azərbaycanı Cənubi Qafqazın əsas inkişaf mərkəzinə çevirib. Ölkəmiz regionun müasir iqtisadi-siyasi mənzərəsini müəyyənləşdirən qlobal layihələrin təşəbbüskarı və icraçısıdır. Bu layihələr regiona sülh, davamlı inkişaf, insanlara rifah gətirir. Bu mənəvi dəyərlərdən böyük bir coğrafiyada yaşayan insanlar faydalanır. Azərbaycanın təklif etdiyi gələcək hər kəsin maraqlarına xidmət edir. Hər kəs üçün daha gözəl bir dünyanın qurulmasına töhfə verir.

Azərbaycan son illər bütün dünyada sivilizasiyalar arasında dialoqu, fərqli mədəniyyətlərə hörmət ruhunu, tolerantlığı yayan, təbliğ edən, ümumbəşəri dəyərlərin hakimliyinə çalışan ölkə kimi tanınıb.

Bəs Ermənistanın dünyaya verdikləri nədir? İşğal olunmuş torpaqlarımızda yaratdıqları xarabazarlıqlardan, keçmiş haqqında saxta nağıllarla dünyanı bezdirməkdən, qonşuları ilə münaqişə yaradıb yeni insan faciələrinə vəsilə olmaqdan, etnik təmizləmədən, xarici ölkələrdən, beynəlxalq təşkilatlardan dilənçi kimi sədəqə ummaqdan, işğalçı mövqeyinə görə sərhədlərini qapayıb geniş kommunikasiyalara, inkişafa mane olmaqdan, regionun təhlükəsizliyini təhdid altında saxlamaqdan və sadaladığımız onlarca mürtəce xüsusiyyətlərdən başqa heç nə! Bunlar onilliklər boyu işğalçı, mürtəce, irticaçı ölkənin işinə yarayırdı. Amma yeni dünyada daha bunların heç biri keçmir. Həqiqəti bilməməsi Ermənistan cəmiyyətinin ən böyük məğlubiyyətidir. Nə qədər ki, işğalçı ölkədə bu həqiqəti anlayan sağlam qüvvələr formalaşmayıb, Ermənistan keçmişin sərsəm nağıllarını, kini-küdurəti yeni dünyaya da daşıyıb ətrafı zəhərləməklə özünü və xalqını gələcəksizliyə məhkum edir.

Bizim dövlətimiz isə yaxın zamanlarda azad yurdlarımızda yaradacağımız abadlıq mənzərəsi ilə, dövlətçilik dəyərləri ilə, ərazi bütövlüyümüzə hörmətlə yanaşan bütün qonşularla mehriban münasibətlər qurmaq arzusu ilə, ümumbəşəri dəyərlərə xidmət amalı, regiona sülh, inkişaf, rifah gətirmək əzmi ilə bu torpaqlarda yaradılacaq gözəl bir gələcəyin qüdrətli müəllifidir. Bu, qüdrətli dövlətimizin işıqlı, nurlu arzularının yaratdığı həyatımızdır!

Bu, həmin işıqlı gələcəyə yol açan Qələbəmizdir!
Birliyimizin, gücü ilə qazandığımız Qələbədir!
Ədalətin, zəkanın Qələbəsidir!
Qələbən mübarək, Vətən!
Qələbən mübarək, Azərbaycan Ordusu!

Möhtəşəm qələbəniz mübarək, bu qələbənin sevincini xalqına yaşadan, Ali Baş Komandanımız!

**Nurlana ƏLİYEVA,**
**YAP Qadınlar Şurasının sədri,**
**Bakı Slavyan Universitetinin rektoru,**
**professor**

# Düşmənin başını əzən dəmir yumruq

İlham Əliyevin yenilməz qətiyyəti, Ordumuzun gücü və xalqımızın öz rəhbəri ətrafında səfərbərliyi Vətən müharibəsində Azərbaycanın Qələbəsini təmin etdi



Əvvəli 1-ci səh.

28 il davam edən proses Ermənistanın təcavüzkar siyasətindən əl çəkmək istəməməsi və həmsədrlərin işğalçıya qol-qanad verən mövqeyi ucbatından nəticəsiz qalmışdı. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ərazisi kimi tanıdığı, beynəlxalq hüququn bütün normalarının respublikamızın tərəfində olduğu halda 28 ildə problemin həllində iştirak edən vasitəçilər qətiyyət nümayiş etdirməkdən uzaq oldular, işğalçını heç vaxt öz adı ilə çağırmadılar, ikili standartlardan çıxış etdilər.

Lakin Prezident İlham Əliyev göstərdi ki, təəssübkeşlərinə, havadarlarına, dünya erməniliyinə arxalanaraq işğal siyasətindən əl çəkməyən Ermənistanı nəinki güc yolu ram etmək, hətta onu yumruqla əzərək rəzil vəziyyətə salmaq da mümkündür. Azərbaycanın yumruğu isə dəmir yumruq idi. Bu dəmir yumruq sentyabın 27-dən, elə savaşın ilk günlərindən düşmənin başını qətiyyətlə əzdi.

## Dünyanı heyrətləndirən hücum əməliyyatları və qəhrəmanlıq nümunələri

Vətən müharibəsində cəmi bir neçə həftə ərzində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, Şuşa şəhəri, Xocalı, Xocavənd, Laçın və Tərtər rayonlarının kəndləri işğaldan azad edildi. Amma Ermənistanın cəbhə xəttində yaratdığı müdafiə istehkamlarını, ağır zərbəyə davamlı beton örtüklərlə möhkəmləndirdiyi səngərləri yarmaq o qədər də asan deyilmiş. Digər tərəfdən məlum oldu ki, işğalçı bu cür müdafiə sistemini bütün cəbhəboyu bir neçə mərhələdə yaradıbmış. Üstəlik, Ermənistan qoşunlarının mövqelərinin əsasən yüksəkliklərdə yerləşdiyindən ərazinin relyefi də təbii istehkam rolunu oynayırdı.

Hərbi əməliyyatlar başa çatdıqdan sonra vəziyyəti dəyərləndirən ekspertlərin fikrincə, bu cür möhkəmləndirilmiş mövqeləri yarmaq üçün uzun müddət tələb olunub. Digər tərəfdən, mütəxəssislər belə ön xətt mövqelərinin yarılması zamanı çoxsaylı insan itkisini də istisna etmirdilər. Lakin görünən odur ki, Azərbaycan Ordusu elə müharibənin ilk günlərindən gücü və döyüş imkanları ilə bütün bu yanaşmaları alt-üst etdi. Belə ki, döyüşlərin artıq üçüncü həftəsində Azərbaycan Ordusu Füzulidən Ermənistanla dövlət sərhədinə qədər irəliləyərək böyük bir ərazini işğaldan azad etdi.

Şuşanın işğaldan azad edilməsi Vətən müharibəsində Azərbaycan Ordusunun ən möhtəşəm zəfəri oldu. Şuşanın alınması elə bir unikal əməliyyat oldu ki, hərb elmi həmişə bunu öyrənəcək, araşdıracaq. Bu şəhərin 1992-ci ildə işğalı Azərbaycandakı daxili siyasi ziddiyyətlərin nəticəsi idi. O zaman Ermənistan sadəcə texniki üstünlüyünə görə Şuşanı işğal edə bilmişdi. 44 günlük müharibənin 42-ci günündə Azərbaycan Ordusu milli mədəniyyətimizin ünvanı, musiqimizin beşiyi olan Şuşanı azad etdi. Həmin günlərdə Ermənistan Şuşanın müdafiəsini daha da möhkəmləndirmiş, xüsusi təyinatlı döyüşçülərini şəhərə cəlb etmişdi. Lakin Azərbaycan əsgəri Şuşa uğrunda elə bir döyüş əməliyyat keçirdi ki, bununla bütün dünyanı heyran qoydu. Ordumuz həm əməliyyatın unikallığı ilə, həm əsgərlərimizin qəhrəmanlığı ilə, həm də şəhəri dağıntıya məruz qoymadan işğaldan azad etməklə Azərbaycan hərb elminə möhtəşəm səhifə yazdı.

Ümumiyyətlə, hərbi əməliyyatların strateji və taktiki planlaşdırmasında Azərbaycan dünyaya yeni model təqdim etdi. Bu baxımdan İkinci Qarabağ müharibəsində aparılmış uğurlu hərbi əməliyyatlar strateji və taktiki baxımdan da tarixə düşdü.

## İlham ƏLİYEV: "Otuz il ərzində yığdıqları texnikanı 44 gün ərzində məhv etdik"

Ermənistanın bu müharibədə məğlub olacağı qaçılmaz idi. Çünki döyüşlərin ilk günündən Azərbaycanın hərbi üstünlüyü özünü göstərirdi. İşğalçı dövlətin hakimiyyət orqanları həmişə olduğu kimi müharibə günlərində də öz xalqını aldatmaqla məşğul idi. Azərbaycan Ordusu Hadrutu azad edəndə düşmənin müvafiq orqanları bunu taktiki yerdəyişmə kimi qələmə verdilər. Hətta Şuşa azad edilən gün Ermənistanın müdafiə nazirliyi cəbhənin hansısa istiqamətində guya öz mövqelərini yaxşılaşdırdıqları barədə infomasiya yaymışdı.

Noyabrın 10-da Azərbaycanın işğalçını kapitulyasiyaya məcbur etməsindən sonra Ermənistan ictimaiyyəti də əsl həqiqətlərdən agah oldu. Artıq həmin informasiyaları yayanların heç biri vəzifə başında deyillər. Çünki Azərbaycanın qələbəsi ilə hərəsi bir tərəfə qaçıb. Paşinyanın kapitulyasiya aktına imza atması ilə nəinki Ermənistan ictimaiyyəti, dünya erməniliyi də Azərbaycanın gücünü və hərbi üstünlüyünü gördü.

Xalqa müraciətində Prezident İlham Əliyev Ermənistanın itkilərini və ordumuzun hərbi qənimətlərini də diqqətə çatdırdı. Dövlət başçısının dediyi kimi, Ermənistan ordusu yoxdur: *"Otuz il ərzində yığdıqları texnikanı 44 gün ərzində məhv etdik. Yoxdur Ermənistan ordusu, yoxdur. İndi onlar canlı qüvvəsinin də məhv edilməsi ilə bağlı saxta rəqəmlər verirlər. Bizdə məlumat var. Lazım olanda biz o məlumatı səsləndirəcəyik, işğalçı dövlət nə qədər canlı qüvvə itirib. Biz məhv etmişik Ermənistan ordusunu. Məhz buna görə məcbur olub, diz çöküb bizim qabağımızda kapitulyasiya aktına imza atıb. Hər kəs üçün bu, dərs olmalıdır".*

Azərbaycan əsgərləri döyüş meydanında böyük rəşadət və şücaət nümayiş etdirdilər. Eyni zamanda Vətən müharibəsi göstərdi ki, xalqımız onu ümdə arzularına qovuşduran Liderinin, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşib. Beləliklə, İlham Əliyevin yenilməz siyasi iradə və qətiyyəti, Ordumuzun gücü və xalqımızın öz rəhbəri ətrafında bir amal uğrunda səfərbərliyi Vətən müharibəsində Azərbaycanın parlaq qələbəsini şərtləndirən əsas amillər oldu.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Prezident İlham ƏLİYEV: “Azəri-Çıraq-Günəşli” bizim əsas gəlir mənbəyimizdir”



2017-ci ilin sentyabr ayında imzalanmış “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş saziş çərçivəsində yeni platforma inşa edilir. “Azəri Mərkəzi Şərqi” adlanan platforma gündəlik 100 min barelədək neft hasil etmək gücündə layihələndirilib. İstismar müddəti ərzində qurğunun 300 milyon barelə qədər əlavə neft hasil edəcəyi gözlənilir.

Platformanın üst və qazma modullarının inşası Bibiheybətdəki tikinti-quraşdırma sahəsində aparılır. COVID-19-un yaratdığı çətinliklərə baxmayaraq, son aylar iri qurğuların qaldırılması proqramına başlanmış, qazma qurğusu sahəyə gətirilmiş, onun hər üç hissəsi barjdan boşaldılmış və tikinti ərazisində yerləşdirilmişdir. Hazırda qazma modulunun inşası davam edir.

Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda isə platformanın dayaq blokunun payalarının tikintisi sona çatdırılmış, qurğular uğurla Xəzərə yola salınmış və dənizin dibində quraşdırılmışdır. Hazır olanda dayaq bloku da dənizə göndəriləcək və həmin payalar üstündə yerləşdiriləcək. Zavodda dayaq blokunun və sualtı qurğuların inşası davam edir.

Platformadan ilk hasilatın 2023-cü ildə əldə ediləcəyi nəzərdə tutulur. Bunun üçün mühəndis və tədarük işləri qrafikə uyğun həyata keçirilir. Təchizatçıların göndərdiyi iri avadanlıqlar hazırda Azərbaycana doğru hərəkət etməkdədir.

“Azəri Mərkəzi Şərqi” AÇG-nin 9-cu platforması olacaq. Hazırda yataqda 8 platforma fəaliyyət göstərir. Bunlardan 6-sı hasilat, 2-si isə emal, qazın kompressiyası, suvurma və texnoloji təchizat qurğusudur.

BP Azərbaycan şirkəti bildirir ki, mövcud hasilat platformalarından neftin və qazın çıxarılması sabit və təhlükəsiz şəkildə davam edir. İlin ötən üç rübündə AÇG-dən ümumi hasilat təxminən 132 milyon barel, yəni 17,9 milyon ton olmuşdur. Yataqlar blokundan gündə orta hesabla 482 min, o cümlədən “Çıraq”dan 36 min, “Mərkəzi Azəri”dən 115 min, “Qərbi Azəri”dən 118 min, “Şərqi Azəri”dən 64 min, “Dərinsulu Günəşli”dən 97 min və “Qərbi Çıraq”dan 52 min barel neft alınmışdır.

AÇG-də ümumilikdə 124 neft hasilatı, 39 su injektor və 7 qaz injektor quyusu istismardadır. Bu ilin ilk 9 ayı ərzində 10 neft hasilatı və 2 suvurma quyusu qazılmışdır.

Qeyd edək ki, Azərbaycanın qaz potensialının da önəmli hissəsi AÇG yataqları hesabına formalaşır. Buradan çıxarılan qaz ümumi sistemimizə daxil edilir. Belə ki, AÇG-nin səmt qazının bir hissəsi layların təzyiqini saxlamaq üçün yenidən kollektora vurulur. Mavi yanacağın xeyli hissəsi isə Azərbaycanın daxili istifadəsi üçün Səngəçal terminalından SOCAR-a məxsus kəmərlə “Azəriqaz” şəbəkəsinə ötürülür. Məsələn, cari ilin ilk üç rübü ərzində AÇG-dən SOCAR-a əsasən Səngəçal terminalı, həmçinin Neft Daşlarındakı qurğu vasitəsilə gündə orta hesabla 6 milyon kubmetr, ümumilikdə 1,6 milyard kubmetr səmt qazı verilmişdir. Hasil edilən səmt qazının qalan hissəsi yenidən laylara vurulmuşdur.

Xatırladaq ki, AÇG-də BP (30,37 faiz), SOCAR (25 faiz), MOL (bu il aprelin 16-dan “Şevron” şirkətini əvəz edib, 9,57 faiz), İNPEKS (9,31 faiz), “Ekvinor” (7,27 faiz), “EksonMobil” (6,79 faiz), TPAO (5,73 faiz), İTOÇU (3,65 faiz), ONGC Videş Limited (2,31faiz) şirkətləri tərəfdaşlıq edirlər.

Beləliklə, AÇG 26 ildən çoxdur etibarlı tərəfdaşlıq, ekoloji baxımdan zərərsiz əməliyyatlar sayəsində təhlükəsiz işlənir və 23 ildir ahəngdar şəkildə neft-qaz verir. Hazırda bu yataqlar blokundan hasil edilən neft və səmt qazı platformalardan sualtı xətlər vasitəsilə Səngəçal terminalına çatdırılır və buradakı ixrac marşrutları ilə karbohidrogenlərin dünya bazarlarına yolu başlanır.

Prezident İlham Əliyev “Azəri-Çıraq-Günəşli” yataqlarında hasilatın sabit saxlanılmasının vacib məsələ olduğunu qeyd edərək demişdir: “Azəri-Çıraq-Günəşli” ilə bağlı bütün işlər plan üzrə gedir və bu yataq bizim əsas gəlir mənbəyimizdir. Bunu hər kəs bilməlidir”.

Qeyd edək ki, Azərbaycan Respulikası Dövlət Neft Fondu (ARDNF) bu ilin əvvəlindən noyabrın 1-dək AÇG-dən 3 milyard 57 milyon ABŞ dolları həcmində vəsait əldə etmişdir. Bu barədə fonddan məlumat verilmişdir.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## Azərbaycan məhsulları “Gulfood” qida sərgisində nümayiş olunacaq

Gələn il fevralın 21-25-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçiriləcək “Gulfood” beynəlxalq qida sərgisində Azərbaycan məhsulları nümayiş olunacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun rəhbəri vəzifələrini icra edən Yusif Abdullayev dekabrın 2-də onlayn B2G forumunda deyib. “Sərgi çərçivəsində sahibkarlarımız görüşlər keçirəcək, ixraca dair müzakirələr aparacaqlar”, - deyə Y.Abdullayev qeyd edib.

## Şuşaya aparan yeni yolun tikintisinə yerli və xarici şirkətlər cəlb edilib



Yeni Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun inşasının tərtib olunmuş qrafikə uyğun qısa müddət ərzində yekunlaşdırılması üçün tikinti işlərinə yerli və xarici şirkətlərin cəlb edilməsi prosesi yekunlaşıb.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin yaydığı xəbərdə bildirilir ki, Şuşa şəhərinə aparan yeni avtomobil yolunun layihəsi şərti olaraq 5 hissəyə bölünüb. Əsas qüvvə olaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin canlı qüvvəsi və texnikaları hazırda layihə boyu tikinti işlərini həyata keçirir.

Bundan başqa, çətin relyefə malik ərazilərdə avtomobil yollarının inşası ilə bağlı təcrübəyə malik 2 türk və bir yerli tikinti şirkəti də layihəyə cəlb olunub. Hazırda “İnşaat Norma və Qaydaları”nın tələblərinə əsasən, layihə boyu torpaq işləri görülür, həmçinin xüsusi texnikalardan istifadə olunmaqla yolun genişləndirilərək profilə salınması, yeni yol yatağının inşası işləri aparılır.

Dövlət başçısının sərəncam və tapşırığına əsasən, Şuşa şəhərinin, ümumilikdə Qarabağın gələcək inkişaf perspektivləri nəzərə alınmaqla hazırlanan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikinti layihəsinin uzunluğu 101,5 kilometr, ümumi eni 37,7 metr təşkil edəcək. Yeni avtomobil yolunun əsas hissəsinin eni 21,5 metr olmaqla 4 hərəkət zolağından ibarət olacaq. Eyni zamanda relyefin imkan verdiyi əraziyə qədər layihə üzrə hər bir istiqamətdə əlavə geniş hərəkət hissəsinə malik 1 ehtiyat zolağın inşası da nəzərdə tutulub. Ehtiyat zolaqlarla birgə yolun bir hissəsinin 6 hərəkət zolağından ibarət olması planlaşdırılır.

Qeyd edək ki, yeni Füzuli-Şuşa magistral avtomobil yolu başlanğıcını M6 Hacıqabul-Bəhrəmtəpə-Mincivan-Ermənistan ilə dövlət sərhədi magistral yolunun Füzuli rayonunun Əhmədbəyli kəndindən keçən hissəsindən götürməklə işğaldan azad edilmiş Füzuli, Xocavənd və Xocalı rayonlarının ərazisindən keçir.

## Pambıq yığımında orta məhsuldarlıq 33 sentnerə çatır

Kənd Təsərrüfatı Nazirliyinin verdiyi məlumata görə, qəbul məntəqələrinə 327586 ton pambıq təhvil verilib.

Dekabrın 1-dək fermerlər sahələrdən 327586 ton pambıq yığaraq qəbul məntəqələrinə təhvil veriblər. Bu, ötən ilin yekun göstəricisindən 32586 ton çoxdur. Qeyd edək ki, 2019-cu il pambıq mövsümünün yekununda ölkə üzrə 295 min ton pambıq yığılaraq məntəqələrə təhvil verilmişdir.

Bu günə olan operativ məlumata görə, pambıq yığımında orta məhsuldarlıq 32,79 sentner təşkil edir. Bu, ötən ilin yekun göstəricisindən 3,29 sentner çoxdur. Hazırda sahələrdə pambıq yığımı davam edir, mövsümün yekununda həm məhsul həcmi, həm orta məhsuldarlıq göstəricilərinin daha da artacağı gözlənilir. Pambıq yığımının optimal müddətdə başa çatdırılması nəzərdə tutulur.

2020-ci ildə Azərbaycanın 21 rayonunda 100 min hektara yaxın sahədə pambıq əkilib. İndiyədək ən yüksək orta məhsuldarlıq Salyan (40,35 sent/ha), Neftçala (38,46 sent/ha), Tərtər (36,58 sent/ha), Beyləqan (34,92 sent/ha), Yevlax (34,62 sent/ha), Ağcabədi (34,27 sent/ha), Goranboy (33,84 sent/ha), Saatlı (33 sent/ha), Bərdə (32,81 sent/ha), Sabirabad (32,19 sent/ha), Ağdam (32,15 sent/ha) və Zərdab (30 sent/ha) rayonlarında qeydə alınıb.

2020-ci ildə ən çox pambıq əkini Saatlı (14141 ha), Ağcabədi (10689 ha), Bərdə (10646 ha), Biləsuvar (10061 ha), Sabirabad (9683,5 ha) və Beyləqan (8743 ha) rayonlarında aparılıb.



Qeyd edək ki, Azərbaycanda pambıqçılığın inkişafı dövlət tərəfindən dəstəklənir. Yeni subsidiya mexanizminə əsasən, pambıqçı fermerlər təhvil verdikləri məhsula görə dövlətdən həm əkin, həm məhsul subsidiyası alırlar. Pambıq sahəsinin hər hektarına görə fermerə 220 manat subsidiya verilir, eyni zamanda, fermerlər qəbul məntəqələrinə təhvil verdikləri pambığın hər tonuna görə 100 manat subsidiya alırlar. Yetişdirilən məhsul fermerdən keyfiyyətindən asılı olaraq hər tonu 550-650 manat olmaqla satın alınır. Həyata keçirilən dövlət dəstəyi mexanizmləri nəticəsində pambıqçılıq kənd təsərrüfatının ən əməktutumlu və ən çox gəlir gətirən sahəsinə çevrilib.

## Laçında aqrar, sənaye və turizm sahələri inkişaf etdiriləcək



Kəlbəcər-Laçın iqtisadi rayonuna daxil olan və işğaldan azad edilmiş Laçın rayonu Azərbaycan Respublikasının cənub-qərbində, dağlıq ərazidə yerləşir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi Laçınla bağlı hazırladığı təhlili materialda bildirir ki, sözügedən rayon şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa və Xocavənd, cənubdan Qubadlı rayonları, qərbdən isə Ermənistan Respublikası ilə həmsərhəddir. Rayon ərazisi 1.84 min kvadratmetr olmaqla 08 avqust 1930-cu ildə yaradılıb. Laçın rayonu ilə Bakı arasında olan məsafə 414 km-dir. Rayonda 1 şəhər (Laçın ), 1 qəsəbə (Qayğı), 125 kənd vardır. Əhalinin sayı - 77,7 min nəfər, sıxlığı isə 1 $km^2$/42 nəfərdir (1 yanvar 2019-cu il). 2009-cu ilin əhalinin siyahıyaalınması məlumatına əsasən, əhalinin 96 faizi azərbaycanlılardan ibarətdir və əhalinin 83 faizi kənd yerlərində yaşayır.

Rayonda əsas civə yataqları olan Narzanlı, Çilgəzçay, Sarıbulaq (ümumi ehtiyatları 1124 ton), əhəng istehsalına yararlı Laçın əhəngdaşı (ehtiyatları 4457 min ton), və üzlük daşı istehsalına yararlı Qoçaz mərmərləşmiş əhəngdaşı (ehtiyatları 2533 min $m^3$), mişar daşı istehsalına yararlı 2 tuf Ağoğlan, Əhmədli (ümumi ehtiyatları 5125 min $m^3$), kərpic-kirəmid istehsalına yararlı Novruzlu gil (ehtiyatları 998 min $m^3$) yataqları və istismar ehtiyatları 430 min $m^3$/gün olan Minkənd mineral su yataqları vardır.

Bu bölgədə inşaat sektoru üçün əhəmiyyətli hesab edilən xammal bazası mövcuddur. İşğaldan öncə mərmər, əhəng sexləri, iki ədəd daş karxanası fəaliyyət göstərib. Bu bir daha rayonun yenidən biznes ənənələrini bərpa etmək üçün fundamental əsaslardandır. Nəzərə alsaq ki, Qarabağın inkişafında əsas inkişaf faktoru tikinti sektoruna yararlı xammal bazasıdır, Laçın rayonu da bu istiqamətdə yaranacaq inkişaf trayektoriyasında mühüm paya sahib olacaqdır.

Laçın rayonunun bir sıra investisiya tutumlu sahələri var ki, bura kənd təsərrüfatı, heyvandarlıq, toxuculuq, tikinti və turizm sektoru daxildir. İşğaldan əvvəl əməkqabiliyyətli əhalinin təxminən 82 faizi kənd əhalisi olub. Bütün bu göstəricilər yerli fermerlər üçün əlavə imkanlar yaradır.

Kənd təsərrüfatında əsas bitkiçilik məhsullarının dənli və dənli paxlalıların (o cümlədən buğdanın) istehsalı 2450 ton olmaqla üstünlük təşkil edir. Digər kənd təsərrüfatı məhsullarından şəkər çuğunduru, kartof, tərəvəz, bostan bitkilərini söyləmək mümkündür. Əhali burada əsasən heyvandarlıqla məşğul olmuş və iri-buynuzlu mal-qara, arı, qoyun və keçilər saxlayıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 1990-cı ildə Laçın rayonunda təxminən 40 min iribuynuzlu mal-qara, 240 min qoyun-keçi olmuşdur. İşğaldan əvvəl hər il rayon üzrə dövlətə 6000 ton süd, 5000 ton ət, 400 tondan çox yun satılırdı.

Laçın rayonunun ərazisində toxuculuq sənəti də inkişaf etmişdi. Burada yundan toxunan at çulu, palaz, kilim, xalça, zili, xurcun, fərməş xüsusi gözəlliyi ilə seçilib. Dünyada “Qasımuşağı” adı ilə tanınan xalçanın yaranması Laçın rayonun adı ilə bağlıdır. Sovetlər dönəmində rayonda yun və gön-dəri qəbulu müəssisəsi fəaliyyət göstərib. Bütün bu istiqamətlər gələcəkdə rayonun Qarabağın yüngül sənayesinin inkişafında dəstəkləyici faktora çevrilməyinə səbəb olacaqdır.

Ümumiyyətlə, işğaldan əvvəl rayonda 217 mədəniyyət müəssisəsi, 142 səhiyyə obyekti, 133 idarə və müəssisə, 100 ümumtəhsil məktəbi, 5 məktəbəqədər müəssisə, 5 musiqi məktəbi, 1 internat məktəbi, 1 orta texniki peşə məktəbi fəaliyyət göstərirdi. Bununla yanaşı, yağpendir, konserv zavodu, ət tədarükü və qəbulu məntəqəsi, yun və gön-dəri qəbulu müəssisəsi, kimya birliyi, baytarlıq müalicəxanası, tikinti materialları istehsalat birliyi, ağac emalı sənayesi, yol və tikinti quraşdırma idarəsi, Sumqayıt alüminium və maşınqayırma zavodlarının filialları, yüngül sənaye və yerli sənaye kombinatları, iki asfalt zavod, beton zavod, mərmər, əhəng, pemoksol və toxuculuq sexləri, iki daş karxanası fəaliyyət göstərirdi.

## “Azərkosmos” 30 ölkəyə 37,8 milyon dollarlıq xidmət göstərib

Yanvar-oktyabr aylarında “Azərkosmos” ASC 30 ölkəyə 37,8 milyon dollarlıq xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edib.

AZƏRTAC İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac İcmalı”nın noyabr sayına istinadla xəbər verir ki, “Azərkosmos”un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 90 faizini təşkil edib.

Oktyabr ayında “Azərkosmos” 21 ölkəyə 6,9 milyon dollar dəyərində xidmət ixrac edib. ASC-nin bu ilin yanvar-oktyabr aylarında xidmət ixracı həyata keçirdiyi əsas ölkələr Fransa, ABŞ, Birləşmiş Krallıq, Malayziya və Birləşmiş Ərəb Əmirlikləri olub.

## Birbaşa xarici investisiyaların təşviqinə dair strategiya hazırlanır

“Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası (IFC) ilə birgə birbaşa xarici investisiyaların təşviqinə dair 2020-2025-ci illəri əhatə edən strategiya hazırlanır və sənəd yaxın vaxtlarda təqdim olunacaq”.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri vəzifələrini icra edən Yusif Abdullayev dekabrın 2-də onlayn B2G forumunda deyib.

O qeyd edib ki, strategiyada bir sıra sahələrə, o cümlədən alternativ enerji, logistika, nəqliyyat, qida sənayesi, kənd təsərrüfatı, yüngül sənaye və informasiya texnologiyaları sahələrinə xarici investisiyaların təşviqi önəmli yer tutur.

## Hacıqabulda 15 tondan çox bal istehsal olunub

Hacıqabulda arıçılığın inkişafına xüsusi diqqət yetirildiyindən rayonda arı ailələrinin sayı ilbəil artır, məhsul istehsalı çoxalır.



Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, dövlətin arıçılığın inkişafına göstərdiyi hərtərəfli dəstək və hər arı ailəsinə görə verilən 10 manat əlavə subsidiya rayonda arı ailəsinin artırılmasına və məhsul istehsalının çoxalmasına müsbət təsir göstərir.

Hazırda rayonun ayrı-ayrı arıçılıq təsərrüfatlarında 994 arı ailəsi saxlanılır ki, bu il arı ailələrinin hər birindən 15-18 kiloqram olmaqla 15 ton 904 kiloqram məhsul istehsal olunub. İstehsal olunan balın yarıdan çoxu rayonun Meyniman və Ələtli inzibati ərazi dairəsi üzrə nümayəndəliklərdə fəaliyyət göstərən arıçılar tərəfindən istehsal olunur.

**Biz birlikdə güclüyük!**

# *Akif QURBANOV:* "İnsanların bir qismində koronavirusa qarşı immunitet yaranmayana qədər pandemiya ilə mübarizə aparmaq çətin olacaq"

Bəzi hallarda xəstəliyin bütün nəticələri aşkar olsa da, PZR analizi mənfi olur. Belə olan halda nəzərə almalıyıq ki, yanlış analizlər ola bilər və yenə də qorunma tədbirlərinə əməl etməliyik.

AZƏRTAC xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyəti yanında tibbi-elmi komitənin sədri, professor Akif Qurbanov dekabrın 2-də Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində deyib.

Professor deyib: "Elə dövrə gəlib çıxmışıq ki, soyuqdəymə, qızdırma, öskürək və s. əlamətlər olanda "bəlkə məndə COVID var" - deyə düşünməliyik. Ona görə ki, biz infeksiya mənbəyi olub, onu başqalarına yoluxdura bilərik. Heç kəsin bu infeksiyaya tutulmasını arzu etmirik, amma biz özümüz bu barədə ciddi fikirləşməli və həkimə müraciət edib diaqnozu dəqiqləşdirməliyik.



Həmişə sual verirlər: bu xəstəlik nə vaxta qədər davam edəcək? Əlbəttə, dəqiq proqnoz vermək çətindir. Dəfələrlə demişik və bir daha deyirik ki, insanların bir qismində bu xəstəliyə qarşı immunitet yaranmayana qədər pandemiya ilə mübarizə aparmaq çətin olacaq. Bu, heç də o demək deyil ki, hamı xəstələnməlidir və onda immunitet yaranmalıdır. Kimdəsə xəstəlik keçirməsi nəticəsində immunitet yarana bilər, əhalinin qalan hissəsində isə yaxın aylarda aparılacaq peyvənd tədbirləri nəticəsində mümkün olacaq. Bu vasitə ilə kollektiv immunitet yaradıb pandemiyadan qurtula bilərik".

# Ötən həftə Azərbaycanda 25 min 895 nəfər koronavirusa yoluxub

Hazırda Azərbaycanda pandemiyanın 41-ci həftəsi yaşanır. Ötən həftə ölkəmizdə 25 min 895 nəfər koronavirusa yoluxub. Koronavirus səbəbindən 232 nəfər həyatını itirib. Gündəlik yoluxmalarda müayinə əmsalında ən yüksək göstərici aşkarlanıb - 29 faiz. Ölkə üzrə ümumi ölüm faizi 1.1 faiz təşkil edir.

AZƏRTAC xəbər verir ki, bunu bu gün keçirilən Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində TƏBİB-in İnfeksion xəstəliklər üzrə işçi qrupunun həkim-infeksionisti Nəzrin Mustafayeva deyib.

"Digər ölkələrdə ölüm göstəricilərinə nəzər salsaq, Türkiyədə bu rəqəm 2.1 faiz, Böyük Britaniyada 3.6 faiz, ABŞ-da 2 faiz, Kanadada 3.2 faiz, Avropa İttifaqı ölkələrində isə 2.3 faiz təşkil edib", - deyə o bildirib.

# Daxili İşlər Nazirliyi vətəndaşları xüsusi karantin rejimi qaydalarına ciddi əməl etməyə çağırır

Daxili İşlər Nazirliyi (DİN) vətəndaşları xüsusi karantin rejimi qaydalarına ciddi əməl etməyə çağırır.

DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciətdə xüsusi karantin rejimi qaydalarına zidd olaraq, virusa yoluxan şəxslərin ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerlərini tərk etməsi halları müşahidə olunduğu vurğulanıb.

Qeyd edilib ki, dekabrın 1-də polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən respublikamızın ayrı-ayrı şəhər və rayonlarında, eləcə də Bakıda 26 aktiv COVID-19 xəstəsi müəyyən olunaraq saxlanılıb. Onlar əsasən əhalinin intensiv hərəkət etdiyi ictimai yerlərdə aşkarlanıblar.

Həmin xəstələrdən 24 nəfəri görülən tədbirlərlə evə qaytarılıb, 2 nəfər xəstəxanaya yerləşdirilib, 18 nəfər barəsində isə Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanıb. İstintaq araşdırmaları davam etdirilir.

DİN vətəndaşlarımıza bir daha müraciət edərək xüsusi karantin rejiminin tələblərinə ciddi əməl olunmasına çağırıb.

# Koronavirus daşıyıcıları əsasən 20 yaşa qədər olan vətəndaşlardır

Koronavirus daşıyıcıları əsasən 20 yaşa qədər olan vətəndaşlardır. Onlar, adətən, koronavirusu assimptomatik şəkildə keçirirlər. Lakin ailə üzvlərini, xroniki xəstəliklərdən əziyyət çəkən əzizlərini, 65 yaşdan yuxarı olan doğmalarını yoluxdururlar. 20 yaşadək olan vətəndaşlara ölüm daşıyıcıları da demək olar.

AZƏRTAC xəbər verir ki, bunu bu gün keçirilən Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun direktoru, tibb elmləri doktoru Adil Allahverdiyev deyib.

Onun sözlərinə görə, son elmi tədqiqatlara əsasən, 4 faiz insanlarda genetik olaraq immun sisteminin əsas hüceyrələri, yəni makrofajlar bu virusa qarşı interferon tip I sintezlənmir. Ona görə də yaşından, xəstəliyi olub-olmamasından asılı olmayaraq, həmin şəxslər virusa yoluxursa, bu, ölümlə nəticələnə bilər. Bununla yanaşı, virusa yoluxanların 10 faizində autoimmun xəstəlik meydana gəlir. Bu zaman orqanizmimizdə anticisimlər makrofajların interferon sintezləməsinin qarşısını alaraq virusun yaşamasına imkan yaradır. Virus da hər bir canlı kimi yaşamaq istəyir. Nə qədər deyilənlərə əməl etməsək, virusun orqanizmimizdə bir o qədər yaşamasına imkan yaradacağıq".

# Azərbaycanda koronavirus infeksiyasına daha 3942 yoluxma faktı qeydə alınıb, 2265 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 3942 yoluxma faktı qeydə alınıb, 2265 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 37 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 129 min 544 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 79 min 162 nəfər müalicə olunaraq sağalıb, 1470 nəfər vəfat edib. Aktiv xəstə sayı 48912 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 763 min 609 test aparılıb. Dünənki test sayı isə 17411-dir.

# Gigiyenik qaydalara əməl edilməsi mövsüm üçün xarakterik olan bütün infeksiyalardan qorunmaqda mühüm rol oynayır

Müşahidələrdən və kütləvi-informasiya vasitələrindəki rəsmi məlumatlardan məlum olur ki, dekabrın ilk günlərindən COVID -19-a yoluxanların və bu pandemiyadan ölənlərin sayında ciddi artım var. Baxmayaraq ki, dövlətin qayğısı nəticəsində insanların bu gözəgörünməz düşməndən qorunması üçün dövlət səviyyəsində lazımı tədbirlər həyata keçirilir.

Ekspertlərin fikrincə, yay aylarındakı yoluxma sayındakı azalma ilə hazırkı artım arasında müəyyən obyektiv və subyektiv səbəblər var. Obyektiv səbəb payızın dəyişən havası, qışın soyuq, küləkli günləri ilə bağlıdır. Subyektiv səbəb isə insanların bu virusa qarşı qabaqlayıcı tədbirlərə və qoyulan qaydalara lazımınca riayət etməmələridir. Bu, pandemiyanın geniş yayıldığı ölkələrdə də belədir. Bu günün dörd min xəstəsini götürsək, onların hər birinin başqaları ilə təmasda olduğunu nəzərə alsaq, görərik ki, təmasda olanlarda da əlamətlər inkişaf edir. Hətta qeydiyyatdan keçməyənləri də nəzərə alsaq, bu rəqəmin hansı həddə çatdığını yəqin etmək çətin olmaz. Odur ki, yoluxma sayında artım durmadan davam edir. Heç kimə sirr deyil ki, hazırda müəyyən səbəblərdən xəstələrin bir qismi evdə müalicə olunur. Onların nə dərəcədə izolyasiya qaydalarına əməl etməsi çox vacibdir. Həmin şəxslər yaşadıqları yeri tərk edə bilməzlər. Yoluxanların ailə üzvləri bir neçə gündən sonra potensial koronavirus xəstəsi hesab olunurlar. Odur ki, ölkə rəhbərliyinin Azərbaycanda koronavirus (COVID-19) pandemiyası ilə mübarizə tədbirləri ilə bağlı tapşırıq və göstərişlərinə uyğun olaraq respublikamızın bölgələrində, ən ucqar qəsəbə və kəndlərində belə bu epidemiyaya qarşı kompleks tədbirlər davam etdirilir. Koronavirusa (COVID-19) yoluxanların sayında müşahidə edilən sürətli artımı nəzərə alan Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərliyi və yerli strukturları ötən həftə səhər saatlarından etibarən paytaxtın əsas küçə, prospekt və magistral yollarında xüsusi kimyəvi maddələrlə əlavə gücləndirilmiş dezinfeksiya işlərinin aparılmasını davam etdirmişlər. Bu işlərə kommunal təsərrüfatı xidmətlərinin 40 ədəd xüsusi texnikası və 2000 nəfərdən çox əməkdaşı cəlb edilmişdir. Küçələrdə aparılan dezinfeksiya işləri ilə yanaşı departamentin əməkdaşları tabeliklərindəki yaşayış binalarında, lift kabinələrində, həyət və yaşayış məhəllələrində, buradakı idman-əyləncə qurğularında, habelə məişət tullantılarının atıldığı konteyner meydançalarında tibbi-profilaktik və dezinfeksiyaedici tədbirləri davam etdiriblər. Bu zaman istifadə edilən maddələrin qəbul olunmuş müəyyən toksikliyi nəzərə alınaraq sakinlərə əvvəlcədən bildirilib ki, geniş dezinfeksiya tədbirlərinin keçirilməsində əsas məqsəd vətəndaşlarımızı bu pandemiyadan qorumaqdır. Bundan başqa, kəskin respirator virus infeksiyalarının yayılmasına qarşı qabaqlayıcı tədbirlər çərçivəsində ötən həftə paytaxtın marşrut xətləri üzrə avtobuslarında da dezinfeksiya işləri həyata keçirilmişdir. Belə ki, ötən istirahət günlərində Bakıətrafı qəsəbələrdə fəaliyyət göstərən 140-dan çox avtobus dezinfeksiya edilmişdir. BŞİH-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, avtobuslar insanların həm təmas, həm də hava-damcı yolu ilə infeksion xəstəliklərə yoluxmasına qarşı olan dərman preparatları ilə dezinfeksiya edilib. Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərliyi koronavirusun geniş yayılmasını nəzərə alaraq, qabaqlayıcı tədbirlər görülməsi məqsədilə ölkəmizdə ictimai nəqliyyat sahəsinin də nəzarətdə saxlanılmasını zəruri hesab edib. Tapşırığa əsasən, Bakı Nəqliyyat Agentliyi kəskin respirator virus infeksiyalarının yayılmasına qarşı qabaqlayıcı tədbirlər görülməsi məqsədilə gündəlik sərnişin daşıyan avtobusların xarici və daxili hissələrinin təmiz olmasına, salonda dezinfeksiya işlərinin tez-tez həyata keçirilməsinə nəzarəti daha da gücləndirib.

Bakı şəhər Nərimanov rayonu 8 saylı Poliklinikanın sahə həkimi Svetlana Nəcəfova bildirir ki, hazırda soyuq fəsildəyik, mövsümi qriplərin baş qaldırdığı dövrdə əlavə ağırlaşmaların olmaması, koronavirusla bərabər, qripə yoluxmanın qarşısının vaxtında alınması üçün sanitariya-gigiyena qaydalarına, ictimai yerlərdə məsafəni qorumağa, maskadan istifadə edilməsinə və sair tövsiyələrə ciddi əməl edilməlidir.

65 yaşdan yuxarı olanlar risk qrupu adlandırılır. Bu qrupa xroniki xəstəliyi olanlar da aid edilir. Yoluxma riskinə məruz qalanlar isə ən çox insanlarla sıx təmasda olanlardır. Məsələn, həkimlər, müəllimlər, polislər, jurnalistlər, məişət-xidməti işçiləri, bir sözlə, gündəlik həyatda daha çox təması olanlar. Belə insanlar yaşadıqları ərazidə öz sahə poliklinikaları ilə sıx əlaqə saxlamalı, ehtiyac yarandıqda yubanmadan sahə həkiminə müraciət edərək vaxtında lazımi dəstək almalıdırlar.

Karantin qaydalarına riayət olunması ilə bağlı bir məsələyə də münasibət bildirmək istərdim. Unudulmamalıdır ki, maska qoruyucu vasitədir. Maskadan dəfələrlə istifadə etmək, onu çantada, cibdə gəzdirmək və yenidən istifadə etmək isə yoluxma riskini artırır. Belə ki, maskanın xarici səthinə əlimizi vururuq, əlimizi üzümüzə, hansısa səthə toxundururuq. Nəticədə həm özümüz yoluxa bilərik, həm də toxunduğumuz səthlərə kimsə əli ilə təmas etdikdə yoluxa bilər. Maskadan mütləq şəkildə düzgün istifadə etmək lazımdır. Maska istifadəsi ilə yanaşı, sanitariya-gigiyena qaydalarına əməl olunmalıdır. Asqırarkən, öskürərkən ağzımızı dirsək bükümü ilə örtməliyik və ya birdəfəlik salfetlərdən istifadə etməliyik ki, virusu yaymayaq. Bunlar hamısı qoruyucu tədbirlərdir. Qoyulan qaydalara və şəxsi gigiyenaya əməl etmək bir sıra infeksiyalardan qorunmaqda mühüm rol oynayır.

Respublika Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyəti yanında tibbi-elmi komitənin sədri, professor Akif Qurbanov mövzu ilə əlaqədar qəzetimizin sorğusuna cavab olaraq bildirib ki, hələ əvvəlki koronavirus infeksiyalarından sonra dayanıqlı immunitet yaranmadığı, ona görə də təkrar yoluxmanın mümkünlüyü deyilirdi. Bu, COVID-19-da özünü doğrultdu: "Bir neçə ay öncə Avropadan təkrar yoluxma hallarının olması ilə bağlı xəbərlər gəldi. Həmin xəbərlər getdikcə çoxalır. Təkrar xəstələnmə zamanı xəstəliyin özünü necə göstərməsinə dair sübut olunmuş məlumatlar yoxdur. Lakin bu zaman ən yüngül xəstəlik halından ən ağırına qədər müşahidə oluna bilər. Xəstəliyin hansı hallarda yüngül və ağır gedişə malik olacağı araşdırılmalıdır. Heç kim arxayınlaşmamalıdır ki, mən yoluxub sağalmışam, daha yoluxmayacam. Belə deyil, yenidən yoluxa bilərik. Hazırda təkrar yoluxmanı proqnozlaşdırmaq mümkün deyil. Çünki bu barədə kifayət qədər sübut və materiallar yoxdur".

Professor onu da bildirib ki, insanların 70 faizinin, yəni üçdə ikisinin orqanizmində koronavirusa qarşı immunitet yaranacağı zaman virus aramızdan gedəcək. Hazırda bütün dünyada insanların az bir qismi yoluxub. Əhalinin bir qrupu xəstəliyi keçirib sağalaraq immunitet qazanacaq. 70 faizin digər hissəsi isə vaksinlə tənzimlənəcək. Azərbaycan dövlət səviyyəsində ən effektiv və təhlükəsiz vaksinlərin alınması üçün tədbirlər görür.

Xatırladaq ki, Azərbaycan Prezidentinin tapşırıq və tövsiyələrinə əsasən, ölkə əhalisinin sağlamlığını daim diqqətdə saxlayan Azərbaycan hökuməti insanların əsrin bəlası olan COVID-19-dan qorunması üçün bütün qabaqlayıcı tədbirləri görür. Bu günlərdə Nazirlər Kanbineti "Bakı Şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" qərarında dəyişiklik edib. Qərara əsasən, Bakı Şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin verilməsi müddəti 2021-ci il yanvarın 1-dək uzadılıb.

Məmnunluq doğuran həm də odur ki, Azərbaycan Prezidentinin diqqət və qayğısı sayəsində bu gün ölkəmizdə əvvəlcədən bütün lazımi qabaqlayıcı tibbi infrastruktur yaradılıb, respublikamızın potensial imkanları pandemiya ilə əlaqədar yaranan çətinliklərin öhdəsindən gəlməyə və vəziyyəti nəzarətdə saxlamağa tam qadirdir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Fövqəladə Hallar Nazirliyində ABŞ-ın "Samaritan's Purse" təşkilatının nümayəndə heyəti ilə görüş keçirilib

ABŞ-ın xristian-yevangelist beynəlxalq humanitar təşkilatlarından olan "Samaritan's Purse"nin Azərbaycanda səfərdə olan proqramlar və hökumətlə əlaqələr üzrə vitse-prezidenti Ken İsaaksın rəhbərlik etdiyi nümayəndə heyəti dekabrın 2-də Fövqəladə Hallar Nazirliyində (FHN) olub. FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyəti ilə görüşən fövqəladə hallar nazirinin müavini tibb xidməti general-leytenantı Faiq Tağızadə qonaqlara nazirliyin fəaliyyəti haqqında ətraflı məlumat verib. Nazir müavini həmçinin Azərbaycanın tarixi torpağı olan, erməni vandallarının işğal etdikləri Qarabağda və ona bitişik rayonlarda dini abidələrimizə qarşı törətdikləri vəhşiliklərdən danışıb, tarixi və mədəniyyət abidələrimizi məqsədyönlü şəkildə dağıtdıqlarını bildirib. Azərbaycanın hər zaman tolerant dövlət olduğunu xatırladan nazir müavini ölkəmizdə məscid, kilsə və sinaqoqlara xüsusi diqqət göstərildiyini vurğulayıb.



Son vaxtlar dünyada geniş yayılmış yeni növ koronavirus (COVID-19) infeksiyasının qarşısının alınması istiqamətində dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə görülən mühüm işlərdən danışan nazir müavini Bakının Xətai rayonunda FHN-in Tibb Mərkəzinin koronavirusa yoluxmuş xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının fəaliyyətindən ətraflı söz açıb. Faiq Tağızadə Azərbaycan Prezidentinin tapşırığına əsasən yaradılan bu hospitalın ən müasir standartlara cavab verdiyini, koronavirus infeksiyasına yoluxmuş xəstələrin müalicəsi üçün bütün şəraitin yaradıldığını, müasir avadanlıqla təchiz edildiyini bildirib.

Səmimi görüşə görə təşəkkürünü bildirən "Samaritan's Purse"nin proqramlar və hökumətlə əlaqələr üzrə vitse-prezidenti Ken İsaaks Azərbaycan xalqını qələbə münasibətilə təbrik edib. Səfərin əsas məqsədinin münaqişədən zərər çəkmiş vətəndaşlara yardım etmək və COVID-19 ilə mübarizə sahəsində ölkəmizə dəstək göstərməkdən ibarət olduğunu vurğulayan qonaq bu istiqamətdə əməkdaşlıqda maraqlı olduqlarını diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

# Livanlı muzdlu terrorçu Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən məsuliyyətə cəlb edilib

Müxtəlif xarici ölkələrin vətəndaşlarının muzd müqabilində Ermənistandan Azərbaycan Respublikasının işğal altında olmuş ərazilərinə keçirilməklə qanunsuz silahlı birləşmələr, terrorçu dəstələr halında döyüşlərə cəlb olunmaları ilə bağlı çoxsaylı faktlara dair kompleks əməliyyat-istintaq tədbirləri davam etdirilir.

AZƏRTAC Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) saytına istinadla xəbər verir ki, aparılan araşdırmalarla Livan Respublikasının vətəndaşı Viken Eulcekcianın, həmin ölkənin digər vətəndaşı Hovak Kikiyan, habelə ayrı-ayrı xarici ölkə vətəndaşları ilə birgə qabaqcadan razılaşdırılmış konkret muzd müqabilində Azərbaycan Respublikasının işğal altında olmuş ərazilərində hərbi əməliyyatlarda iştirak etmələrinə və terrorçuluq əməlləri törətmələrinə əsaslı şübhələr yaranıb.

DTX-də başlanılmış cinayət işi üzrə Viken Eulcekcian Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 114.3-cü (Muzdluluq), 214.2.1-ci və 241.2.3-cü (Terrorçuluq), 228.2.1-ci (Qanunsuz olaraq odlu silah, döyüş sursatı əldə etmə, saxlama, daşıma və gəzdirmə), 279.1-ci (Qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilib.


## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi
## açıq tender elan edir

- Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin inzibati binası üçün jalüzlərin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər. Əlaqələndirici şəxs - Aysel İlyasova, telefon: 012 525-50-26 #9234.

**İştirak haqqı: LOT üzrə 50 (əlli) manat**

**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**

**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT: IBAZAZ2X**
**H/hesabı: AZ59IBAZ38090019446221732216**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəllәsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 29.12.2020-ci il saat 16:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 07.01.2021-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 08.01.2021-ci il saat 16:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***



## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası akademiyada 24 saat mühafizə xidmətinin təşkili işinin satın alınması üzrə elektron tender elan edir

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İŞTİRAK HAQQI: 500 (beş yüz) manat**

TƏŞKİLAT: AZƏRBAYCAN DÖVLƏT BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN AKADEMİYASI

**VÖEN: 1500374911**
**H/HESABI: AZ20AIIB38090019440138430118**
**BANKIN ADI: "KAPİTAL BANK" ASC GƏNCLİK FİLİALI**
**KOD: 200189**
**VÖEN: 9900003611**
**MÜXBİR HESABI: AZ37NABZ01350100000000001944**
**SWIFT BIK: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının bu sahədə fəaliyyətinə dair lisenziyası;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 18.12.2020-ci il saat 11:00-a qədər, tender təklifi və bank təminatını isə 28.12.2020-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 29.12.2020-ci il saat 11:00-da açılacaqdır.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılacaqdır.

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 29 oktyabr 2020-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalında **(https://www.etender.gov.az)** Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmada (eTender) Nessus lisenziyasının 1 (bir) il müddətinə uzadılmasının satın alınması üçün təklif vermiş iddiaçıların sayı üçdən az olduğundan "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə əsasən, bu LOT üzrə eTenderin davamından imtina edilmişdir.

***Tender komissiyası***

## “Azərişıq”ASC müxtəlif tipli sayğacların satın alınması məqsədilə
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1: Müxtəlif tipli sayğacların satın alınması
İştirak haqqı - 2000 manat

**“Azərişıq” ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: “Kapital Bank”ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Ramin Şıxıyev, telefon: 440-39-93 daxili (28-26) **ramin.shixiyev@azerishiq.az**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 18 yanvar 2021-ci il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 28 yanvar 2021-ci il saat 16:00-a qədər Bakı şəhəri, M.Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 29 yanvar 2021-ci il saat 16:00-da Bakı şəhəri, M.Əliyev küçəsi, 130 ünvanında “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## “Azərişıq” ASC MP106 və MP306 tipli Paudraad SMART kart tipli sayğacların kart oxuyucularının satın alınması məqsədilə
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satrnalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız “ASAN Ödəniş” vasitəsilə həyata keçirə bilərlər. Müsabiqədə iştirak etmək üçün müsabiqəyə daxil olduqdan sonra “Asan Ödəniş”lə “ödə” düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**LOT-1:** MP106 və MP306 tipli Paudraad SMART kart tipli sayğacların kart oxuyucularının satın alınması

**İştirak haqqı - 300 manat**
**“Azərişıq” ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: “Kapital Bank”ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Ramin Şıxıyev, telefon: 440-39-93, daxili (28-26) **ramin.shixiyev@azerishiq.az**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış, sahibkarlıq kateqoriyası haqqında məlumat (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd; (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir (iri sahibkarlıq subyektləri qanuna əsasən elektron Portal vasitəsilə keçirilən tenderdə iştirak edə bilməz));*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının analoji işlərdə təcrübəsi haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır).*

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 29 dekabr 2020-ci il saat 16:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini 11 yanvar 2021-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 12 yanvar 2021-ci il saat 16:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## “Azərişıq” ASC Mobil tətbiqi dəstək edən kart oxuyucuların satın alınması məqsədilə
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satrnalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə va texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız “ASAN Ödəniş” vasitəsilə həyata keçirə bilərlər. Müsabiqədə iştirak etmək üçün müsabiqəyə daxil olduqdan sonra “Asan Ödəniş”lə “ödə” düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

LOT-1: Mobil tətbiqi dəstək edən kart oxuyucuların satın alınması

**İştirak haqqı - 300 manat**
**“Azərişıq” ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: “Kapital Bank”ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Orxan İbrahimov, telefon: 440-39-93 daxili (28-15) **orxan.s.ibrahimov@azerishiq.az**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış, sahibkarlıq kateqoriyası haqqında məlumat (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir. (İri sahibkarlıq subyektləri qanuna əsasən elektron Portal vasitəsilə keçirilən tenderdə iştirak edə bilməz));*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *tender təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının analoji işlərdə təcrübəsi haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır).*

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 29 dekabr 2020-ci il saat 16:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini 11 yanvar 2021-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 12 yanvar 2021-ci il saat 16:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi” Publik Hüquqi Şəxsi tərəfindən Avtomobillərin satın alınması ilə bağlı elan edilmiş açıq tenderdə müsabiqənin bitmə tarixi və vaxtı 01.12.2020-ci il saat 18:00-dan 02.12.2020-ci il saat 18:00-a qədər, zərflərin açılış tarixi və vaxtı isə 02.12.2020-ci il saat 15:00-dan 03.12.2020-ci il saat 15:00-a qədər uzadılmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 19 noyabr 2020-ci il tarixdə www.etender.gov.az Portalında, 20 noyabr 2020-ci il tarixdə “Azərbaycan” qəzetində dərc edilmiş Nəqliyyat vasitələrinin cari və əsaslı təmiri işlərinin satın alınmasına dair keçirilmiş kotirovka sorğusunda Tender komissiyasının qərarı ilə “My Auto” MMC müsabiqənin qalibi elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 13 noyabr 2020-ci il tarixdə www.etender.gov.az Portalında, 14 noyabr 2020-ci il tarixdə “Azərbaycan” qəzetində dərc edilmiş İSO 37001: 2016 Beynəlxalq Standartın tələblərinin tətbiqi üzrə məsləhət xidmətlərinin göstərilməsinə dair xidmətlərin satın alınmasına dair keçirilmiş kotirovka sorğusunda Tender komissiyasının qərarı ilə “ZAYQON KASPİAN KONSALTİNQ” MMC müsabiqənin qalibi elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 24 noyabr 2020-ci il tarixdə www.etender.gov.az Portalında, 25 noyabr 2020-ci il tarixdə “Azərbaycan” qəzetində dərc edilmiş 8 saylı Ərazi Məşğulluq Mərkəzi filialı üçün ofis sahəsinin icarəsi xidmətlərinin satın alınmasına dair keçirilmiş kotirovka sorğusunda Tender komissiyasının qərarı ilə fiziki şəxs Faiq Nizami oğlu Şirinov müsabiqənin qalibi elan olunmuşdur.

Qaliblə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dövlət Vergi Xidmətinin Bakı şəhəri Kiçik Sahibkarlıqla İş üzrə Baş İdarəsi “Azərbaycan” qəzetinin 03.11.2020-ci il tarixli 228 nömrəli saytında yerləşdirilmiş təkliflər sorğularının nəticələri üzrə “Sosial-İnkişaf Layihə” Məhdud Məsuliyyətli Cəmiyyəti ilə “Bakı şəhəri, Nərimanov rayonu, A.Nemətulla küçəsi, 44 ünvanında yerləşən binasının fasad üzlüyünün dəyişdirilməsinin layihə-smeta sənədlərinin hazırlanması” işinin satın alınmasına dair 16520,0 manat və “Bakı şəhəri, Binəqədi rayonu, Z.Bünyadov prospekti, 15 ünvanında yerləşən inzibati binasında əsaslı təmir işlərinin yerinə yetirilməsinin layihə-smeta sənədlərinin hazırlanması” işinin satın alınmasına dair 70387,0 manat məbləğində satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası Tender komissiyasının 24 noyabr 2020-ci il tarixdə “Maşın, avadanlıq və ləvazimatların satın alınması” üzrə keçirdiyi elektron açıq prosedurunda “Estet” Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan edilmişdir.

Qalib iddiaçı ilə 01 dekabr 2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin Mühasibat uçotu şöbəsinin mütəxəssisi

**SƏADƏT MURADOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-polkovnik Kərəm Mustafayevə və Mustafayevlər ailəsinə əzizləri

**VAQİF MUSTAFAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Yasamal Rayon İcra Hakimiyyəti və rayon ictimaiyyəti Yasamal Rayon İcra Hakimiyyəti başçısının 3 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin əməkdaşı

**XANƏLİ ŞAVƏLƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu Təhsil Nazirliyinin aparat rəhbəri Muxtar Məmmədova atası

**MƏMMƏD MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva və aparatın əməkdaşları iş yoldaşları Elvin Hacıyevə əzizi

**MÜNƏVVƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Dövlət Universitetinin rəhbərliyi Təhsil Nazirliyinin aparat rəhbəri Muxtar Məmmədova atası

**MƏMMƏD MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7457
Sifariş 2755
Qiyməti 40 qəpik